بسم الله الرحمن الرحيم

# SİLSİLƏTUZ-ZƏHƏB HƏDİSİ

# ƏHLİ SÜNNƏNİN NƏZƏRİNDƏ

**MÜƏLLIF: MƏHƏMMƏD MÖHSIN TƏBƏSI**

**TƏRCÜMƏ EDƏN:MAQSUD SAILOV**

**Təbəsi Məhəmməd Möhsin** **طبسی، محمد محسن، ۱۳۶۰ –**
**(حدیث سلسله الذهب از دیدگاه اهل سنت. آذری)**

**Silsilətuz-zəhəb hədisi əhli sünnənin nəzərində, Məhəmməd Möhsin Təbəsi, Tərcümə edən: Sailov Maqsud, Məşhəd şəhəri: islami tədqiqat bölümü** **.p 96**

İSBN:978-964-971-534-6

ترکی آذری . حادیث خاص (سلسله الذهب) احادیث اهل سنت

سائل اف ماقسود Sailov Maqsud
بنیاد پژوهشهای اسلامی

1391 4045 ح ۲ ط/ ۱۴۵ BP 297 \214
کتابخانه ملی جمهوری اسلامی ایران 2926024

**Silsilətuz-zəhəb hədisi əhli sünnə nəzərində**

**Müəllif: Məhəmməd Möhsin Təbəsi**

**Mütərcim: Sailov Maqsud**

**Redaktor: Babayev Elvar**

**Birinci çap: 2013**

**Tiraj: 1000 nüsxə**

**Qiymət: 17500 riyal**

**Çap: Astan Qudse Rəzəvinin intişarəti**

**www. Islamic-rf:ir** **info@islamic-rf.ir**

**Çap huququ qorunulur**

# GİRİŞ

İslam tarixinin gözəl və ilahmverici səhifələrindən biri İmam Rzanın (ə) Xorasana girişi, Nişaburda yaşanan səhnələrdir. Əhli-sünnə alimlərinin, sadə xalqın İmamdan (ə) təbərrük alması, sevinc göz yaşları axıtması, miniyinin ayaq izlərini öpməsi, yalvarışı, diz çöküşü tarixin şahid olduğu faktlardır. Bütün bunlar İshaq ibn Rahveyh, Məhəmməd ibn Əsləm Tusi və Əhməd ibn Hərb kimi üçüncü, dördüncü əsr əhli-sünnə alimlərinin, hədis şünaslarının vətənində, el-obasında baş vermişdir. İmamın (ə) Nişabura girişi zamanı baş verən ən mühüm hadisə pak əcdadlarından "Silsilətuz-zəhəb" adlanan hədisi nəql etməsi olmuşdur. Belə ki, onu eşidən hər bir müəllif böyük bir rəğbət və fərəhlə yazmış, hər bir natiq qurur və sevinclə söyləmiş, hər bir dinləyici isə maraq və təccüblə dinləmişdir. Bu mühüm hadisəni qələmə alan və söyləyən əhli-sünnəyə mənsub olduqda həmin təccüb və maraq bir neçə dəfə artmışdır. "Silsilətuz-zəhəb" hədisinin sənəd və məzmununu inkar məqsədi daşıyan irad və tənqid yığınını, eləcə də bu sahədə geniş tədqiqat əsərinin olmadığını nəzərə alıb qarşınızdakı əsəri əhli-sünnə qaynaqları əsasında hazırladıq. Əsərdə İmam Rza (ə) dönəmindən günümüzədək yaşamış əhli-sünnə alimlərinin "Silsilətuz-zəhəb" hədisi ilə bağlı mövqeyi, fikir və açıqlamaları toplanmış, dəyərləndirildikdən sonra dörd fəsildə tərtib edilərək

"Silsilətuz-zəhəb" hədisi əhli-sünnənin nəzəri adı ilə hazırdakı kitab şəklini almışdır.

Qeyd etmək lazımdır ki, əsər ilk dəfə elmi məqalə şəklində 1387-ci ildə Məşhəd İslami tədqiqatlar fondu tərəfindən İmam Rza (ə) altıncı festifalı çərçivəsindən keçirilən "Silsilətuz-zəhəb" elmi seminarına göndərilmiş və fərqləndirilərək iştirakçıların marağına səbəb olmuşdur. Bəzi alimlərin təklifi ilə məqalə ayrıca nəşr edildi və bu üzdən düzəliş və əlavələrdən sonra yeni redakda ilə hazırdakı şəkilə salındı.

## *BİR NEÇƏ MƏQAM*

Burada bir neçə məqamı nəzərdən qaçırmamaq lazımdır:

1. Əsərdə əhli-sünnədən məqsəd əsasən Şafei, Maliki, Hənbəli, Hənəfi və Zahiri məzhəblərinin ardıcılı olan alimlərin baxışlarıdır. Zaman baxımından isə hicri-qəməri ikinci yüz illikdən indiyə kimi olan zaman kəsiyi nəzərdə tutulur. Demək, kitabda qondarma və təfriqəçi vəhabbi qruplaşmasının baxışlarına yer verilməmişdir.

2. Tədqiqatda nəql və təhlil əsas götürülmüşdür.

Əhli-sünnə alimlərinin İmam Rzanın (ə) Nişabura girişi və "Silsilətuz-zəhəb" hədisini söyləməsi ilə bağlı bütün açıqlamaları, tarixi faktları toplamaqla yanaşı bir çox baxışlara tənqidi yanaşılaraq təhlil edilmişdir. Təhlillər də əhli-sünnənin qəbul etdiyi elmi normalar əsasında aparılmışdır. Buna görə də əsər şiə təlimlərinə tətbiq olunmadan tərtib olunmuşdur.

3. Əsərdə vasitəsiz və ya vasitəli olaraq yüzdən çox əhli-sünnə qaynağından sitat gətirilmişdir. Nadir

hallarda kitabın orijinalı tapılmadıqda digər mötəbər qaynaqlardan nəql olunmuşdur. Buna görə də kitabda əhli-sünnə alimlərinin "Silsilətuz-zəhəb" hədisi ilə bağlı şiə qaynaqlarında nəzərə çarpan fikirlərinə yer verilməmişdir.

Əsərin bu istiqamətdə atılan yeni addım olmasına baxmayaraq, müəllif onun qüsursuz olduğu iddiasında deyil və oxucuların səmimi tənqidlərinə açıqdır.

Sonda Ayətullah Şeyx Nəcməddin Təbəsi, Şeyx Məhəmməd Hadi Yusifi Qərəvi və Şeyx Məhəmməd Baqirpur Əminiyə əsərin zənginləşməsindəki zəhmətlərinə görə təşəkkür edirəm.

"Silsilətuz-zəhəb" İmam Rzanın (ə) Nişabura tarixi girişini, əhalinin, xüsusi ilə görkəmli əhli-sünnə alim və hədisçilərinin onu böyük təntənə ilə qarşılamasını və bu hadisənin iyirmi min rəvayətçi tərəfindən qeyd olunmasını xatırladan ifadədir.

Hakim Nişaburi Şafei yazır:

"İmam Rza (ə) hicri-qəməri tarixi ilə 200-cü ildə Nişabura daxil oldu". [1]

O, bu ildə həmin tarixi hadisəni "Nişabur tarixi" əsərində qeyd etmişdir.

## *MÜBAHİSƏ OBYEKTİ*

Bilməliyik ki, əhli-sünnə kitablarında məzmunca fərqli, sənədcə eyni, İmam Rzanın (ə), Nişaburda söylədiyi və "silsilətuz-zəhəb" kimi məşhurlaşmış iki

---

[1] "Fəraid əs-səmtin fi fəzail əl-Murtəza və əl-Bətul və əs-sibtəyn və əl-əimməti min zurriyyətihim (ə)", c. 2, səh. 199, hədis: 478. Hakim nişaburidən nəql olunmuşdur.

hədis öz əksini tapmışdır. Bunlardan biri "*Hisn*", digəri isə "*İman*" hədisidir.

İmam Rzadan (ə) sözügedən iki hədisdən əlavə digər hədislər də nəql olunmuşdur ki, Həzrət (ə) onları atalarından nəql etmişdir. Lakin bu hədislərin mətni "*Hisn*" və "*İman*" hədislərinin mətni ilə fərqlidir. Bu şəkiıdə nəql olunan hədislər çox olmuşdur və çox güman ki, İmam Rzanın (ə) metodu hədisləri ata-babalarından nəql etmək imiş. İmamın (ə) yaxınları bu hədisləri ayrıca bir kitabcada toplamışlar (Bu hədislər toplusu "Səhifə" adlanır). Belə ki, Səmani Şafei yazır: "O, ata-babalarından çoxlu sayda hədis nəql etmişdir" (sözügedən kitabçaya işarədir). Onun məşhur hədisləri (səhifə adlanan) kitabçada toplanmışdır".[1] Bu hədis toplusu "Musnədur-Rza" da adlandırılmışdır.[2]

İbn Şirivəyh Deyləmi Şafei bu topluda yer alan hədisləri düzgün və mötəbər hesab etmiş və öz "Müsnəd" əsərində həmin hədislərin bir hissəsini qeyd etmişdir.[3] Təssüflər olsun ki, bütün bunlara baxmayaraq, bəzi rəvayətçilər bu kitabçada yer alan bəzi hədisləri qane edici sübut olmadan zəif və etibarsız hesab etmişlər.[4]

Burada, bu növ hədislərin əhli-sünnə kitablarında öz əksini tapması haqqında ətraflı məlumat üçün öncə məşhur "Silsilətuz-zəhəb" hədisini, əhli-sünnə alimlərinin qeyd olan "*Hisn*" və "*İman*" hədisləri

---

[1] "Əl-Ənsab", c. 3, səh. 74-75. Bax: "əs-Silətu bəynə ət-təsəvvufi və ət-təşəyyu", c. 1, səh. 238.
[2] "Ət-Tədvin fi əxbari-Qəzvin", c. 1. səh, 478; c. 2, səh. 306 və 407.
[3] "Firdəvs əl-əxbar bi-məsur əl-xitab", c. 1, səh. 40.
[4] "Kitab əl-məcruhin", c. 2, səh. 106; "Kitab əs-siqat", c. 8, səh, 456.

haqqındakı görüşlərini, sonra isə eyni sənəd silsiləsinə malik digər hədisləri diqqətinizə çatdıracağıq.

## *"SİLSİLƏTUZ-ZƏHƏB" HƏDİSINİ YAZANLAR*

İmam Rzanın (ə) Nişabura tən-tənəli girişini yazanların on min,[1] iyirmi min,[2] otuz min nəfər[3] olduğu qeyd olunmuşdur. Məşhur vesiya iyirmi min nəfərin yazmasıdır.

---

[1] "Mehmannameye-Buxara", səh. 345.

[2] "Əl-fusul əl-muhimmə fi mərifəti əhvali əl-əimmə", səh. 243; "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh, 344; "əs -Səvaiq əl-muhriqə", c. 2, səh. 595; "Əxbar əd-duvəl və asar əl-uvəl", səh, 115; "Feyz əl-qədir bi şərhi-camii əs -səğir", c. 4, səh, 489; "Nur əl-əbsar fi mənaqibi-Ali-beyti ən-Nəbi əl-mixtar", səh, 236; "Əsrar əş-şəriə", səh, 224. Bu kitablar hamısı "Tarixi-Nişabur"dan nəql etmişlər.

[3] "Vəsilə əl-xadim ilə əl-məxdum", səh. 229.

# BİRİNCİ FƏSİL

## *"HİSN" HƏDİSİ*

***Hədisin mətni***

İmam Rza (ə) buyurmuşdur: "Atam, atası İmam Sadiqdən (ə), o, atası İmam Baqirdən (ə), o, atası İmam Səccaddan (ə), o, atası İmam Hüseyndən (ə), o, atası İmam Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Cəbrayıl dedi: Allahın belə buyurduğunu eşitdim: "*La ilahə illəllah*" cümləsi mənim qalamdır. Onu deyən mənim qalama daxil olmuşdur və Qiyamət günü əzabımdan amanda qalacaqdır"[1].

***Rəvayətçilər***

Bu hədisi İmamın (ə) əsrindən bu günədək böyük əhli-sünnə alimləri nəql etmişlər ki, ardıcıllıqla diqqətinizə çatdıracağıq.

Hədisin sənədinə nəzər saldıqda sözügedən on, iyirmi və ya otuz min rəvayətçidən üçüncü əsrdən indiyədək yalnız əlli rəvayətçinin nəqlinin müxtəlif şəkillərdə bizə gəlib çatdığını görürük.

---

[1] "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 242-243.

***Üçüncü əsr***

İmam Cavad (ə) (h.q. 220)[1]

Məhəmməd ibn Ömər Vaqidi (h.q. 207)[2]

Yəhya ibn Yəhya (h.q. 226)[3]

Əhməd ibn Hərb Nişaburi (h.q. 234)[4]

Əba Səlt Əbdus-Səlam ibn Saleh Hirəvi (h.q. 236)[5]

İshaq ibn Rahveyh Mərvizi (h.q. 238)[6]

Məhəmməd ibn Əsləm Kindi Tusi (h.q. 242)[7]

Məhəmməd ibn Rafe Quşəyri (h.q. 245)[8]

Əbu Zurə Razi (h.q. 261)[9]

Əhməd ibn Amir Tayi[10]

Əhməd ibn İsa Ələvi[1]

---

[1]"Fəraid əs-səmtin fi fəzail əl-Murtəza və əl-Bətul və əs-sibtəyn və əl-əimməti min zurriyyətihim (ə)", c. 2, səh 189; "əl-İthaf bi hubbi əl-əşraf", c. 3, səh. 147.

[2] "Təzkirəl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[3] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.

[4] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125; "Təzkirəl-xəvass minl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[5] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3, səh. 122- 123, 168. Əhli-sünnə alimlərinin böyük əksəriyyəti Əba Səltin əhli-sünnəyə mənsub olduğunu bildirmişlər ki, üçüncü fəsildə bu haqda ətraflı söhbət açacağıq.

[6] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh 125; "Təzkirə əl-xəvass minəl-ümməti bi zikri xəsais əl-əimmə”, səh. 315.

[7] Yenə orada.

[8] Yenə orada.

[9] "Əl-Fusuləl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 242-243; "əs-Səvaiq əl-muhriqə"; c. 2, səh. 594-595; "Əxbar əd-duvəl", səh. 115; “Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489 -490; “Nur əl-əbsar fi mənaqibi Ali-beyt ən-Nəbi əl-muxtar (ə)”, səh 236.

[10] "Tarixi-Dəməşq əl-kəbir", c. 51, səh. 52, hədis: 11473; "Kənz əl-ummal fi sunən əl-əqval və əl-əfal", c. 1, səh. 52, hədis: 158; "Musnədi-İmam Rza (ə)", səh. 439.

Əhməd ibn Əli ibn Sədəqə[2]

***Beşinci əsr***

Hakim Nişaburi Şafei (h.q. 405)[3]

Əhməd ibn əbd ər-Rəhman Şirazi (h.q. 407, yaxud 411)[4]

Əbu Nuəym İsfahani Şafei (h.q. 430)[5]

Quzayi Şafei (h.q. 454)[6]

Şəcəri Curcani Hənəfi (h.q. 499)[7]

***Altıncı əsr***

Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505)[8]

İbn Şirəvəyh Deyləmi Şafei (h.q. 509)[1]

---

[1] "Ət-Tədvin fi əxbari-Qəzvin", c. 2, səh. 213.

[2] "Musnəd əş-Şəhab", c. 72 səh. 323, hədis: 1451.

[3] Aşağıdakı kitablar "Tarixi-Nişabur"dan nəql etmişlər: "Əl-Fusul əl-muhimmə fi mərifəti əhvalul-əimmə", səh. 242-243; "əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 594 -595; "Əxbar əd-duvəl", səh. 115; "Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489-490; "Nur əl-əbsar fi mənaqibi-Ali-beyt ən-Nəbi əl-muxtar (ə)", səh. 236.

[4] "Came əs-səğir min hədis əl-bəşir ən-nəzir", səh. 374, hədis: 6047; "Feyzul-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489 -490. Şirazinin "əl-Əlqab" əsərindən nəql olunmuşdur. Təssüflər olsun ki, hal-hazırda bu kitab əlimizdə deyil. Bəzilərinə görə, əl yazması mövcuddur. Bax: "Tarix ət-turas əl-ərəbi", c. 1, səh. 376; "Siyəru əlam ən-nubəla", c. 17, səh 242. "Əl-Əlqab" kitabının xülasəsinin də əlyazması mövcuddur. Bax: "əl-Fehres əş-şamil li ət-turas əl-ərəbi əl-İslami əl-məxtut", c. 1, səh. 63, nömrə: 454 və səh. 233.

[5] "Hilyə əl-əvliya və təbəqat əl-əsfiya", c. 3, səh. 191-192.

[6] "Musnəduş-şəhab", c. 2, səh. 323, hədis: 1451.

[7] "Əl-Əmali əl-xəmisiyyə", c. 1, səh. 15, hədis: 16.

[8] "Şərhu hədisi-Silsilə əz-zəhəb". Bu kitabın əlyazmasının bir nüsxəsi Hindistanın Məhəmmədiyyə kitabxanasında mövcuddur. Bax: "Əhli-beyt fi məktəbə əl-ərəbiyyə", səh. 237, nömrə: 391.

Zəməxşəri Hənəfi ( h.q. 538)[2]
İbn Əsakir Dəməşqi Şafei (h.q. 571)[3]
İbn Cəvzi Hənbəli (h.q. 597)[4]

***Yeddinci əsr***
İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620)[5]
Rafei Qəzvini Şafei (h.q. 623)[6]
Məhəmməd ibn Təlhə Şafei (h.q. 652)[7]
Sibt ibn Cəvzi Hənəfi (h.q. 654)[8]

***Səkkizinci əsr***
İbn Mənzur Əfriqi (h.q. 711)[9]
Cuveyni Şafei (h.q. 730)[10]
Zəhəbi Şafei (h.q. 748)[11]

---

1 "Firdəvs əl-əxbar bi məsur əl-xitab" c. 3, səh. 211, hədis: 4458; c. 5, səh. 351, hədis: 8138; "Feyz əl-qədir bi şərhi Cami əs-səğir, c. 4, səh. 490.
2 "Rəbi əl-Əbrar və nusus əl-əxbar" c. 2, səh. 380, hədis: 228.
3 "Tarixi-Dəməşq əl-kəbir", c. 51, səh. 252 -253, hədis: 11472, 11473, nömrə 5742.
4 "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.
5 "Ət-Təbyin fi ənsab əl-qurəşiyyin", səh. 133.
6 "Ət-Tədvin fi əxbari-Qəzvin", c. 2, səh 213.
7 "Vəsilə əl-xadim ila əl-məxdum", səh. 227. Qeyd etmək lazımdır ki, Məhəmməd ibn Təlhə bu hədisi "Mətalib əs-suul fi mənaqibi-Ali-ər-Rəsul" kitabında qeyd etməmişdir. Çox güman ki, onu "Zübtə əl-məqal fi fəzail əl-Al" kitabında qeyd etmişdir. Sonuncu əlimizdə olmadığı üçün onu Xunci Hənəfidən nəql etmişik. Bax: "Əhli-beyt fi məktəbə əl-ərəbiyyə", səh. 205, nömrə 346.
8 "Təzkirə əl-xəvass min əl-umməti bi zikri xəsais əl-əimmə", səh. 315.
9 "Muxtəsəru Tarixi-Dəməşq", c. 20, səh, 293.
10 "Fəraid əs-səmtin fi fəzail əl-Murtəza və əl-Bətul və əs-sibtəyn və əl-əimməti min zurriyyətihim (ə)", c. 2, səh 189, hədis: 466.
11 "Siyəru əlam ən –nübəla", c. 9, səh. 390.

Zərəndi Hənəfi (h.q. 757)[1]
Xəlifə Nişaburi Şafei (altıncı əsr)[2]

***Doqquzuncu əsr***
Məhəmməd Xacə Buxari Hənəfi (h.q. 822)[3]
İbn Həcər Əsqəlani Şafei (h.q. 852)[4]
İbn Səbbağ Maliki (h.q. 855)[5]

***Onuncu əsr***
Siyuti Şafei (h.q. 911)[6]
Səmhudi Şafei (h.q. 911)[7]
Xunci İsfahani Hənəfi (h.q. 927)[8]
İbn Həcər Heysəmi Şafei (h.q. 974)[9]
Muttəqi Hindi (h.q. 975)[10]

***On birinci əsr***
Qərmani Dəməşqi (h.q. 1019)[11]
Əbdur-Rəuf Mənnavi Şafei (h.q. 1031)[12]

---

[1] "Məaric əl-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh. 165-166.
[2] "Təlxisu Tarixi-Nişapur", səh, 131 -132.
[3] "Fəsl əl-xitab li vəsl əl-əhbab". "Yənabi əl-məvəddə"nin nəqli əsasında, c. 3, səh. 168.
[4] "Təhzib ət-təhzib", c. 7, səh. 339.
[5] "Əl-Fusul əl-muhimmə fi mərifəti əhvali əl-əimmə", səh. 242 -243.
[6] "Əl-Cami əs-səğir min hədis əl-bəşir ən-nəzir", səh. 376, hədis: 6074.
[7] "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh. 342 -343.
[8] "Vəsilə əl-xadim ilə əl-məxdum", səh. 227; "Mehmannameye-Buxari", səh. 343 -345.
[9] "Əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 594 -595.
[10] "Kənz əl-ummal fi sunən əl-əqval və əl-əfal", c. 1, səh. 52, hədis: 158.
[11] "Əxbar əd-duvəl və asar əl-uvəl", səh. 115.
[12] “Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489 -490.

***On ikinci əsr***

Nablusi Dəməşqi Hənəfi (h.q. 1143)[1]

Mirzə Məhəmmədxan Bədəxşi Hindi Hənəfi (on ikinci əsr)[2]

***On üçüncü əsr***

Zəbidi Hənəfi (h.q. 1205)[3]

Qinduzi Hənəfi (h.q.1294)[4]

Şəblənci Şafei (h.q. 1298)[5]

***On dördüncü əsrdən sonra***

Qazi Behcət Əfəndi Şafei (h.q. 1350)[6]

Seyid Məhəmməd Tahir Haşimi Şafei (h.q. 1412)[7]

Şeyx Əhməd Tabei Misri Şafei[8]

Əbdul-Əziz ibn İshaq Bağdadi Hənəfi[9]

## *HƏDİSİ ÇATDIRAN VASİTƏLƏR*

İmamın Nişabura girişini, eləcə də, "*Hisn*" hədisini on, iyirmi və ya otuz min rəvayətçinin nəql etməsinə baxmayaraq, "Qədir" hədisi kimi kölgədə qalmış və ya digər səbəbdən aradan getmişdir.

Hər halda bu hədisi Əba Səltin İmam Rzadan (ə) nəql etdiyi hamıya bəllidir. Buna görə də bəziləri

[1] "Əsrar əş-şəriə", c. 40, səh. 223 -224.
[2] "Miftah ən-nəca fi-mənaqibi Ali-əba", səh. 179.
[3] "Əl-İthaf bi hubbi əl-əşraf", c. 2, səh. 147
[4] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3. səh. 122-123, 168.
[5] "Nur əl-əbsar fi mənaqibi Ali-beyt ən-Nəbi əl-muxtar (s)", səh. 236.
[6] "Təşrih və muhakime dər Tarixe-Ali-Məhəmməd (s)" səh. 190 -191.
[7] "Mənaqibe-əhle-beyt əz-didqahe-əhle-sunnə", səh. 202.
[8] "Əl–İtisam bi həbli əl-İslam", səh. 205 -206.
[9] "Musnədul-İmam Zeyd", səh. 439 -440.

onun zəif rəvayətçi olduğunu sübut etməklə hədisin etibarına kölgə sala biləcəklərini düşünürlər.

Buna cavab olaraq deməliyik ki, birincisi, böyük əhli-sünnə rical alimləri Əba Səltə (bir rəvayətçi kimi) etimad göstərmişlər. İkincisi, Əba Səltdən əlavə digər rəvayətçilər də həmin hədisi İmam Rzadan (ə) nəql etmişlər. Qeyd olunan hədisi İmam Rzadan (ə) rəvayət edən rəvayətçiləri nəzərdən keçirərək:

1. İmam Cavad (ə). Cuveyni Şafei[1] və Zəbidi Hənəfi[2] hər ikisi məlum hədisi özünə məxsus sənədlə İmam Cavaddan (ə) rəvayət etmişlər.

2. Əba Səlt Əbdus-Səlam ibn Saleh Hirəvi.

O, İmamın (ə) xidmətçisi olmuş, daim onu müşayiət etmiş və bu mühüm tarixi hadisəni bütün təfəkküratı ilə rəvayət etmişdir. Əhli-sünnə rəvayətçi və alimlərinin böyük əksəriyyəti Əba Səltin rəvayət etdiyi bu hədisi müxtəlif vasitələrlə rəvayət etmişlər[3].

3. Əhməd ibn Amir Tayi. İbn Əsakir Dəməşqi Şafei, bu hədisi özünəməxsus sənədlə Əhməd ibn Amir Tayidən nəql etmişdir[4].

4. Əhməd ibn İsa Ələvi. Rafei Qəzvini Şafei məlum hədisi özünəməxsus sənədlə Əhməd ibn İsa Ələvidən nəql etmişdir[5].

5. Əhməd ibn Əli ibn Sədəqə. Əbu Əbdullah ibn Məhəmməd ibn Sələmə Quzayi Şafei qeyd olan hədisi

---

[1] "Fəraid əs-səmtin fi fəzail əl-Murtəza və əl-Bətul və əs-sibtəyn və əl-əimməti min zurriyyətihim (ə)", c. 2, səh. 189, hədis: 466.
[2] "Əl-İthaf bi hubbi əl-əşraf", c. 2, səh. 147.
[3] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3. səh. 122-123, 168.
[4] "Tarixi-Dəməşq əl-kəbir", c. 51, səh. 253, hədis: 11473. Bax: "Kənz əl-ummal fi sunən əl-əqval və əl-əfal", c. 1, səh. 52, hədis: 158; "Musnədu əl-İmam Zeyd", səh. 439.
[5] "Əl-Tədvin fi əxbari-Qəzvin", c. 2, səh 213.

özünəməxsus sənədlə Əhməd ibn Əli ibn Sədəqədən nəql etmişdir[1].

6. Məhəmməd ibn Ömər Vaqidi. Sibt ibn Cəzvi Hənəfi bu hədisi Vaqidi vasitəsi ilə nəql etmişdir[2].

7. Əbu Zurə Razi.

8. Məhəmməd ibn Əsləm Tusi. Hakim Nişaburi Şafei bu mühüm məsələni işıqlandırmışdır[3].

9. İshaq ibn Rahəvəyh Mərvizi.

10. Məhəmməd ibn Rafe Quşəyri.

11. Əhməd ibn Hərb Nişaburi.

Son üç vasitə İbn Cəvzi Hənbəli[4] və Sibt ibn Cəvzi Hənəfinin Vaqidi[5] vasitəsi ilə nəql etdikləri sənəddə yer almışdır.

12. Yəhya ibn Yəhya.

Bu vasitə ilə də İbn Cəvzi Hənbəli[6] rəvayət etmişdir.

***Hədisin davamı***

"Bilin ki, "La ilahə illəllah"ın şərtləri var. Mən onun şərtlərindənəm".

---

1 "Musnəd əş-Şəhab", c. 72, səh. 323, hədis: 1451.

2 "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

3 Aşağıdakı kitablar "Tarixi-Nişapur"dan nəql etmişlər: "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 242-243; "əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 594 -595; "Əxbar əd-duvəl", səh. 115; “Feyz əl-qədir bi şərhi Cami əs-sağir", c. 4, səh. 489-490; “Nurul-əbsar fi mənaqibi-Ali-beyt ən-Nəbi əl-muxtar (ə)”, səh. 236.

4 "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.

5 "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

6 "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.

Bir çox əhli-sünnə qaynaqlarında hədisin davamının çıxarılmasına baxmayaraq, Məhəmməd Xacə Buxari Hənəfi və Qazi Bəhcət Əfəndi Şafei kimi insaflı əhli-sünnə alimləri hədisin yüksək imamət məqamına dəlalət edən davamını nəql etmişlər.

***Məhəmməd Xacə Buxari Hənəfi (h.q. 822)***

Əba Səltdən nəql olunur: Rza ləqəbi almış Əli (Allah ondan razı olsun) azacıq qaraya çalan kül rəngli qatır üzərində Nişaburdan çıxarkən yanında idim. Bu an Əhməd ibn Hərb, Yəhya ibn Yəhya, İshaq ibn Rahveyh və bir neçə başqa alim onun qatırının yüyənindən tutaraq dedilər: "Ey Allah rəsulunun övladı! Sənə and veririk pak əcdadlarının haqqına, bizə elə bir hədis de ki, onu atandan, ata-babalarından eşitmisən". Həzrət mübarək başını kəcavədən çıxarıb buyurdu: "Atam, atası İmam Sadiqdən (ə), o, atası İmam Baqirdən (ə), o, atası İmam Səccaddan (ə), o, atası İmam Hüseyndən (ə), o, atası İmam Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: "Cəbrayıl dedi: Allahın belə buyurduğunu eşitdim: "Həqiqətən mən Tanrıyam. Məndən başqa Tanrı yoxdur. Mənə pərəstiş edin. Kim sədaqətlə "La ilahə illəllah"a gəlsə (iman bəsləsə), Mənim qalama daxil olmuşdur. Mənim qalama daxil olan əzabımdan amanda qalar". Bir rəvayətə görə, karvan hərəkət etdikdə bizə buyurdu: "Bilin ki, (bunun) şərtləri var və mən o şərtlərdənəm". Deyilmişdir ki, onun şərtlərindən biri Ona (İmama) tabe olmağın vacibliyini iqrar etməkdir[1].

[1] "Fəsl əl-xitab li vəsli əl-əhbab". "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3, səh. 168.

***Qazi Bəhcət Əfəndi Şafei (h.q. 1350)***

Əba Səltdən rəvayət olunur: Rza ləqəbi almış Əli (Allah ondan razı olsun) azacıq qaraya çalan kül rəngli qatır üzərində Nişaburdan çıxarkən yanında idim. Bu an Əhməd ibn Hərb, Yəhya ibn Yəhya, İshaq ibn Rahveyh və bir neçə başqa alim onun qatırının yüyənindən tutaraq dedilər: “Ey Allah rəsulunun övladı! Sənə and veririk pak əcdadlarının haqqına, bizə elə bir hədis de ki, onu atandan, ata-babalarından eşitmisən”. Həzrət mübarək başını kəcavədən çıxarıb buyurdu: "Atam, atası İmam Sadiqdən (ə), o, atası İmam Baqirdən (ə), o, atası İmam Səccaddan (ə), o, atası İmam Hüseyndən (ə), o, atası İmam Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Cəbrayıl dedi: Allahın belə buyurduğunu eşitdim: "*La ilahə illəllah*" cümləsi mənim qalamdır. Onu deyən mənim qalama daxil olmuşdur və Qiyamət günü əzabımdan amanda qalacaqdır. Bilin ki, "La ilahə illəllah"ın şərtləri var. Mən onun şərtlərindənəm"[1].

## ƏHLİ-SÜNNƏ ALİMLƏRİNİN "HİSN" HƏDİSİ HAQQINDA NƏZƏRLƏRİ

"*Hisn*" hədisi haqqında iki fikir mövcüddur. Bəziləri hədisin yalnız Əba Səlt Hirəvi tərəfindən nəql olunduğunu təsəvvür edərək onun zəif (rəvayətçi) olduğunu bildirmiş və beləcə "*Hisn*" hədisini (sənəd baxımından) etibarsız hədis kimi qələmə vermişlər.

[1] "Təşrih və muhakime dər Tarixe-Ali-Məhəmməd (s)" səh. 190 -191.

Bir halda ki, əhli-sünnə alimlərinin böyüklərinin əksəriyyəti Əba Səlt Hirəvinin etimadlı olduğunu bildirmiş və "*Hisn*" hədisinin təsdiq etməklə yanaşı onun haqqında maraqlı sözlər söyləmişlər. Bəziləri isə bu hədisin şəfabəxş olduğunu bildirmiş və bunun təcrübə olunduğunu söyləmişlər ki, bu haqda söhbət açacağıq.

## *MUVAFIQLƏR*

### ***Əba Səlt Hirəvi (h.q. 236)***

O, bu hədisin əzəməti haqqında deyir: "Əgər bu sənəd dəliyə oxunsa, ağıllı olar".[1]

### ***Əhməd ibn Hənbəl (h.q. 241)***

Əhli-sünnə fiqh öndərlərindən biri olan Əhməd ibn Hənbəl deyir: "Əgər bu sənədi dəli üçün oxusam, dəlilikdən şəfa tapar"[2].

Bəzi rəvayətlərdə sağalar[3], dəliliyi sağalar[4] və xəstəliyi aradan qalxar[5] ifadələri şəklində verilmişdir.

### ***Yəhya ibn Hüseyn Həsəni (h.q. 298)***

O, daim İmam Rzanın (ə) bu sənədi haqqında deyirdi:

"Bu sənəd dəlinin qulğına oxunarsa, ağıllı olar".[6]

---

1 "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.
2 "Əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 595.
3 "Nurul-əbsar fi mənaqibi Ali-beyt ən-Nəbi əl-muxtar (s)", səh. 236.
4 "Əl-Əmali əl-xəmisiyyə", c. 1, səh. 15, hədis: 16.
5 "Əl-İtisam bi həbli əl-İslam", səh. 206.
6 "Rəbi əl-əbrar və nusus əl-əxbar",, c. 4, səh. 79, hədis: 346.

***Əbu Nuəym İsfahani Şafei (h.q. 430)***

O, hədis haqqında ətraflı söhbət açaraq deyir:

Bu sabit və məşhur hədisdir. Hansı ki, bu sənədlə pak insanlar tərəfindən, pak əcdadlardan nəql olunmuşdur. Bəzi keçmiş rəvayətlərimiz bu sənədi rəvayət edərək demişlər: "Əgər bu sənəd dəli üçün oxunarsa, ağıllı olar"[1].

***Əbəl-Qasim Əbdul-Kərim ibn Həvazin Quşeyri Şafei (h.q. 465)***

O, bu hədis haqqında maraqlı faktlar yazır:

"Bu hədis həmin sənəd silsiləsi ilə bəzi Samani padşahlarına (Nuh ibn Mənsur) çatdıqda onu qızılla yazdırıb ölərkən məzarına qoyulmasını vəsiyyət etdi. Öldükdən sonra onu yuxuda görüb soruşdular: “Allah səninlə nə etdi?” Dedi: Allah məni "La ilahə illəllah"a şəhadət verdiyim və Məhəmmədin (s) peyğəmbərliyini təsdiq etdiyim üçün bağışladı"[2].

***Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505)***

Qəzzali də "Silsilətuz-zəhəb" hədisini təsdiq edərək onu izah etməyə çalışmışdır[3].

---

1 "Hilyə əl-əvliya və təbəqat əl-əsfiya", c. 3, səh. 192.

2 "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 243; "Əxbar əd-duvəl", səh. 115; “Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489; “Nur əl-əbsar fi mənaqibi-Ali-beyt ən-Nəbi əl-muxtar (ə)”, səh 236; "Əl-İtisam bi həbli əl-İslam", səh. 206; "Vəsilə əl-xadim ila əl-məxdum", səh. 229; "Mehmannameye-Buxara", səh. 345.

3 "Şərhu hədisi-Silsilə əz-zəhəb". Bu kitabın əlyazmasının bir nüsxəsi Hindistanın Məhəmmədiyyə kitabxanasında mövcuddur. Bax: "Əhli-beyt fi məktəbə əl-ərəbiyyə", səh. 237, nömrə: 391.

***Deyləmi Şafei (h.q. 509)***

O, "**Hisn**" hədisini düzgün hesab edərək yazır: "Sabit hədisdir"[1].

***Zəməxşəri Hənəfi (h.q. 538)***

O, "Silsilətuz-zəhəb" hədisinin əzəmətindən danışarkən Yəhya ibn Hüseyn Həsəninin İmam Rzanın (ə) sənədi haqqında söylədiklərini xatırladır:

"Əgər bu hədisi dəlinin qulağına oxunsa, ağıllı olar"[2].

***İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620)***

Alimlərdən biri demişdir: "Əgər bu sənəd dəli üçün oxunsa, şəfa tapar"3.

***Sibt ibn Cəvzi Hənəfi (h.q. 654)***

O, bu hədisin əzəmətindən söhbət açaraq İbn Qudamə Hənbəlinin sözlərini yada salır: "Əgər bu sənəd dəli üçün oxunsa, ağıllı olar"[4].

***Zərəndi Hənəfi (h.q. 757)***

O, "*Hisn*" Hədisinin əzəməti haqqında yazır: "İlahi! Bizi Qiyamət günü əzabdan amanda saxla. Həqiqətən, yalnız sən uca, böyük, bağışlayan və qüdrət sahibisən"[5].

---

[1] "Feyz əl-qədir bi şərhi Cami əs-səğir, c. 4, səh. 490.
[2] "Rəbi əl-Əbrar və nusus əl-əxbar" c. 2, səh. 380, hədis: 228.
[3] "Ət-Təbyin fi-ənsab əl-qurəşiyyin", səh. 133.
[4] "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.
[5] "Məaric əl-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh. 166.

***Siyuti Şafei (h.q. 911)***

O, "Hisn" hədisini səhih hesab edərək yazır: "Səhih hədisdir"[1].

***Xunci İsfahani Hənəfi (h.q. 927)***

Tədqiqatçılar bildirmişlər ki, zikr olunan rəvayət bu sənədlə ruh xəstəsinə oxunsa, şəfa tapar"[2].

Başqa yerdə yazır: "O hədis olduqca əzəmətli hədisdir və çox səhih sənədə malikdir. Belə ki, alimlər nəql edirlər: Hədisçilərdən biri bu hədisi Buxara padşahlarından birinin hüzurunda oxuduqda, padşah hədisçidən onu həmin sənədlə yazmasını istəyib və vəsiyyət edib ki, öldükdən sonra hədisin yazıldığı vərəqi onun kəfəninə qoyub dəfn etsinlər"[3].

***Əbdul-Vasei ibn Yəhya Vasei Yəmani Hənəfi***

O, yazır: "Bu hədis Peyğəmbərin (s) pak və uca ailəsinə mənsub sənədi ilə birgə qızılla yazılmağa layiqdir"[4].

## *"SİLSİLƏTUZ-ZƏHƏB" HƏDİSİNİN BƏRƏKƏTİ İLƏ ŞƏFA ALMAQ*

Əhli-sünnə alimlərinin böyükləri qeyd olunan hədis barəsində nəzərlərini diqqətinizə çatdırdıq. Həmin mövzunun davamı olaraq qeyd edəcəyik ki, bəzi əhli-sünnə alimləri bu iddianı (dəlinin və

---

1 "Əl-Cami əs-səğir min hədis əl-bəşir ən-nəzir", səh. 376, hədis: 6074.

2 "Vəsilə əl-xadim ilə əl-məxdum", səh. 229.

3 "Vəsilə əl-xadim ilə əl-məxdum", səh. 227; "Mehmannameye-Buxari", səh. 343 -345.

4 "Musnədu əl-İmam Zeyd", səh. 441.

xəstənin şəfa tapması) təcrübədən keçirmiş və demişlər: "Silsilətuz-zəhəb hədisi vasitəsi ilə xəstənin şəfa tapması təcrübə olunmuşdur".

***İbn Xəllakan Şafeinin söylədikləri (h.q. 681)***

Əbu Dələfin ölümünə səbəb olan xəstəliyi camaatın onun yanına girməsinə mane olurdu. Bir neçə gün təsadüfən halı yaxşılaşdı və xidmətçisindən soruşdu: “Məni görməyə kimlər gəliblər?” O, dedi: “Xorasan seyidlərindən on nəfər sizi görməyə gəliblər və artıq bir neçə gündür ki, sizin görüşnüzü gözləyirlər”. Əbu Dələf onları yanına çağırtdırdı. Xoş sözlər deyib gəlişlərinin səbəbini soruşdu. Dedilər: “Dolanışığımız çətinləşib. Sizin səxavətinizi eşidib yanınıza gəldik”.

Əbu Dələf iyirmi min dinarlıq gətizdirib hər birinə iki kisəsini verdi. Bundan başqa yol xərcləri üçün də müəyyən məbləğ pul verdi. Evlərinə çatmayınca kisələri açmamalarnı və hər birinin öz xətti ilə Əli ibn Əbu Talibə (ə) qədər olan şəcərələrini yazmalarını istədi və xaiş etdi ki, sonda nənələri Peyğəmbər (s) qızı Fatiməni (s) yad edib yazsınlar: "Ey Allahın elçisi! Dolanışığımız ağırlaşmışdı. Əbu Dələfin yanına gedib ondan kömək istədik. O da sizin ondan razı olacağınız və şəfaətinizi əsirgəməyəcəyiniz ümidi ilə bizə iki min dinar kömək etdi". Onlar bu sözləri yazdılar. Əbu Dələf dəfn işləri ilə məşğul olacaq şəxsi çağırtdırıb yazılı vərəqləri (öldükdən sonra) onun kəfəninə qoymağı tapşırdı ki, Peyğəmbərlə (s) görüş zamanı ona göstərsin[1].

---

[1] “Vəfəyat əl-əya”, c. 4, səh. 77.

Səmhudi bu hadisəni "Silsilətuz-zəhəb" hədisinin bərəkətinə şahid kimi göstərir və onu "*Hisn*" hədisindən sonra ətraflı nəql edir[1].

***Xunci Hənəfinin söylədikləri (h.q. 927)***

Bu hədisin xüsusiyyətlərindən biri budur ki, onu sidqi-ürəkdən ölüm təhlükəsi ilə qarşı-qarşıya dayanan xəstənin başı üzərində oxuyarlarsa, onun əcəli təxirə salınar. Tez bir zamanda sağlamlıq əlamətləri özünü göstərər. Bu yoxsul (məqsəd Xunçi Hənəfinin özüdür), qeyd olan hədisi bir çox xəstələrin başı üzərində oxumuş və onun təsirini təcrübədən keçirmişəm"[2].

***Digər bir yerdə yazır:***

"Mən təcrübədən keçirmişəm. Əcəli çatmayan hansı xəstənin yanına getmişəmsə, sidqi-ürəkdən bu sənədi oxumuşam. Allah ona şəfa bəxş etmiş, yubanmadan sağlamlıq əlamətləri onda özünü göstərmişdir. Bu mənim sınaqdan keçirdiklərimdəndir[3].

***Muxaliflər***

Bəziləri "Silsilətuz-zəhəb" və "Hisn" hədisinin yalnız Əba Səlt Hirəvi tərəfindən nəql olunduğunu təsəvvür edib onu zəif rəvayətçi hesab etmiş və nəql etdiyi hədislərin etibarsız olduğunu iddia etmişlər. Bir halda ki, bu, dəlilsiz iddia və gümandan başqa bir şey

[1] "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh. 346 -347.
[2] "Mehmannameye-Buxari", səh. 342.
[3] "Vəsilə əl-xadim ila əl-məxdum", səh. 229.

deyildir. Bu iddianın tənqidi üçüncü fəsildə diqqətinizə çatdırılacaq.

# İKİNCİ FƏSİL

## *"İMAN" HƏDİSİ*

"Silsilətuz-zəhəb" hədisi digər bir rəvayətə görə belədir: "Əli ibn Musa ər-Rza (ə) kül rəngli qatır üzərində Nişabura daxil olduqda Yəhya ibn Yəhya, İshaq ibn Rahəbeyh, Əhməd ibn Hərb və Məhəmməd ibn Rafe kimi şəhər alimləri İmamı (ə) qarşılamağa gəlib miniyinin yüyənindən yapışdılar. Sonra İshaq İmama (ə) müraciətlə dedi: Səni əcdadlarının haqqına and veririk, bizim üçün hədis söylə. İmam (ə) buyurdu: "İman qəlbən tanımaq, dillə təsdiq etmək və göstərişlərə əməl etməkdir[1].

***Rəvayətçilər***

Qeyd olunan hədis də "*Hisn*" hədisi kimi əhli-sünnə alimlərinin böyüklərinin çoxu tərəfindən rəvayət olunmuş və onun təsdiqi olaraq haqqında maraqlı sözlər söylənmiş və ya yazılmışdır. Onların adlarını İmam Rzanın (ə) dönəmindən başlayaraq tarixi ardıcıllıqla diqqətinizə çatdıracağıq.

Hədisin sənədinə nəzər saldıqda rəvayət olunan hədis on, iyirmi və ya otuz min rəvayətçidən üçüncü əsrdən indiyədək yalnız qırx yeddi rəvayətçinin rəvayəti müxtəlif şəkillərdə bizə gəlib çatdığını görürük.

---

[1] "Sünəni-İbn Macə", c. 1, səh. 25, hədis: 65; "Kəşf əl-xifa və muzil əl-ilbas əmma iştəhərə min əl-əhadis əla əlsinəti ən-nas", c. 1, səh. 22; "Tənzih əş-şəriə əl-mərfuə ən əl-əxbar əş-şəniə əl-məvzuə", c. 1, səh. 152.

***Üçüncü əsr***

Yəhya ibn Yəhya (h.q. 226)[1]

Əhməd ibn Hərb Nişaburi (h.q. 234)[2]

Əba Səlt Əbdus-Səlam ibn Saleh Hirəvi (h.q. 236)[3]

İshaq ibn Rahveyh Mərvizi (h.q. 238)[4]

Məhəmməd ibn Əsləm Kindi Tusi (h.q. 242)[5]

Məhəmməd ibn Rafe Quşəyri (h.q. 245)[6]

Əbu Zurə Razi (h.q. 261)[7]

İbn Macə Qəzvini (h. q. 275)[8]

Məhəmməd ibn Səhl ibn Amir Bəcəli[9]

Məhəmməd ibn Ziyad Suləmi[10]

Davud ibn Süleyman Qəzvini[11]

Əli ibn Əzhər[12]

Heysəm ibn Abdullah[13]

---

[1] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.

[2] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125; "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[3] "Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf", c. 7, səh. 366, hədis: 10076.

[4] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh 125; "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[5] "Şuəb əl-iman", c. 1, səh. 48, hədis: 17; "əl-Etiqad və əl-hidayə ilə səbil ər-rişad", səh. 180.

[6] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh 125; "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[7] "Məaricul-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh. 164.

[8] "Sünəni-İbn Macə", c. 1, səh. 25, hədis: 65

[9] "Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf", c. 7, səh. 366, hədis: 10076.

[10] Yenə orada.

[11] "Əl-Kamil fi zuəfa ər-rical", c. 1, səh. 198.

[12] Yenə orada.

[13] Yenə orada.

Əhməd ibn Abbas Sənani[1]
Əhməd ibn Amir Tayi[2]

***Dördüncü əsr***
Dulabi Hənəfi (h. q. 310)[3]
Əbu Bəkr Acuri Şafei (h. q. 360)[4]
Təbərani Hənbəli (h. q. 360)[5]
Darqutni Şafei (h. q. 385)[6]

***Beşinci əsr***
İbn Mərdəvəyh İsfahani (h. q. 410)[7]
Mənsur ibn Hüseyn Abi (h.q. 421)[8]
Əbu Nuəym İsfahani Şafei (h.q. 430)[9]
Beyhəqi Şafei (h.q. 458)[10]
Xətib Bağdadi Şafei (h q. 463)[11]
Şəcəri Curcani Hənəfi (h.q. 499)[12]

***Altıncı əsr***
Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505)[1]

---

1 Yenə orada, c. 1, səh. 198.
2 "Əl-Kəşif əl-həsis", səh. 49-220.
3 "Əl-Kuna və əl-əsma", c. 1, səh. 478-479, hədis: 1698.
4 "Ərbəinə hədisən", səh. 47, hədis: 12.
5 "Əl-Mucəm əl-əvsət", c. 4, səh. 363, hədis: 6254; c. 6, səh. 222, hədis: 1698.
6 "Əl-Mutələf əl-muxtələf", c. 2, səh. 1115.
7 "Əd-Durr əl-mənsur", c. 6, səh. 100.
8 "Nəsr əd-durər", c. 1, səh. 362.
9 "Tarixi-İsbəhan", c. 1, səh. 174.
10 "Şuəb əl-iman", c. 1, səh. 47-48, hədis: 16-17.
11 "Tarixi-Bağdad", c. 1, səh. 255-256; c. 9, səh. 385, 386; c. 11, səh. 47.
12 "Əl-Əmali əl-xəmisiyyə", c. 1, səh. 15, hədis: 16.

İbn Şirəvəyh Deyləmi Şafei (h.q. 509)[2]
İbn Əsakir Dəməşqi Şafei (h.q. 571)[3]
İbn Cəvzi Hənbəli (h.q. 597)[4]

***Yeddinci əsr***
İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620)[5]
Rafei Qəzvini Şafei (h.q. 623)[6]
Sibt ibn Cəvzi Hənəfi (h.q. 654)[7]
İbn Əbul-Hədid Mötəzili Şafei (h. q.656)[8]
Mosuli Şafei (h. q. 660)[9]

***Səkkizinci əsr***
İbn Mənzur Əfriqi (h.q. 711)[10]
Məzzi Şafei (h.q. 742)[11]
Zəhəbi Şafei (h.q. 748)[12]
Zərəndi Hənəfi (h.q. 757)[13]

---

[1] "Şərhu hədisi-Silsilə əz-zəhəb". Bu kitabın əlyazmasının bir nüsxəsi Hindistanın Məhəmmədiyyə kitabxanasında mövcuddur. Bax: "Əhli-beyt fi məktəbə əl-ərəbiyyə", səh. 237, nömrə: 391.
[2] "Firdəvs əl-əxbar bi məsur əl-xitab" c. 1, səh. 148, hədis: 371.
[3] "Tarixi-Dəməşq əl-kəbir", c. 46, səh. 226 -227, hədis: 10066.
[4] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.
[5] "Ət-Təbyin fi ənsab əl-qurəşiyyin", səh. 133.
[6] "Ət-Tədvin fi əxbari-Qəzvin", c. 1, səh 167-168, 462.
[7] "Təzkirə əl-xəvass min əl-umməti bi zikri xəsais əl-əimmə", səh. 315.
[8] "Şərhi-Nəhc əl-bəlağə", c. 19, səh. 51.
[9] "Ən-Nəim əl-muqim li itrəti ən-nəbə əl-əzim", səh. 394.
[10] "Muxtəsəru Tarixi-Dəməşq", c. 18, səh, 159.
[11] "Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf", c. 7, səh. 366, hədis: 10076; "Misbah əz-zucacə fi zəvaidi Sunəni-İbn Macə", c. 1, səh. 121-122, hədis: 23.
[12] "Təhzibu Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 6, səh. 92; "Siyəru əlam ən-nübəla", c. 15, səh. 400.
[13] "Məaric əl-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh.

Səfədi Şafei (h. q. 764)[1]

***Doqquzuncu əsr***

Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei (h.q. 833)[2]

İbn Həcər Əsqəlani Şafei (h.q. 852)[3]

Əbdul-Rəhman Səfuri Şafei (h.q. 894)[4]

***Onuncu əsr***

Siyuti Şafei (h.q. 911)[5]

Səmhudi Şafei (h.q. 911)[6]

İbn Həcər Heysəmi Şafei (h.q. 974)[7]

Muttəqi Hindi (h.q. 975)[8]

***On birinci əsr***

Əbdul-Rəuf Mənnavi Şafei (h.q. 1031)[9]

***On ikinci əsr***

Mirzə Məhəmmədxan Bədəxşi Hindi Hənəfi[10]

---

1 "Əl-Vafi bil-vəfəyat", c. 22, səh, 250.
2 "Əsna əl-mətalib fi mənaqibi-seyyidina Əli ibn Abu Talib (ə)", səh. 122-126.
3 "Təhzib ət-təhzib", c. 6, səh. 286.
4 "Nuzhətu əl-məcalis və muntəxəb ən-nəfais", c. 7, səh. 366, hədis: 10076.
5 "Əl-Cami əs-səğir min hədis əl-bəşir ən-nəzir", səh. 376, hədis: 6074; "Əd-Durr əl-mənsur", c. 6, səh. 100.
6 "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh. 345 -346.
7 "Əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 595.
8 "Kənz əl-ummal fi sunən əl-əqval və əl-əfal", c. 1, səh. 273-274, hədis: 1361-1362.
9 "Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 3, səh. 185.
10 "Miftah ən-nəca fi-mənaqibi Ali-əba", səh. 180.

***On üçüncü əsrdən sonra***

Qinduzi Hənəfi (h.q.1294)[1]

Həfsi Ədəvi (h.q. 1332)[2]

Seyid Məhəmməd Tahir Haşimi Şafei (h.q. 1412)[3]

Əbdul-Əziz ibn İshaq Bağdadi Hənəfi[4]

## *HƏDISIN VASITƏLƏRI*

Öncə də qeyd etdiyimiz kimi bəziləri "*İman*" hədisinin yalnız Əba Səlt Hirəvi tərəfindən nəql olunduğunu güman edərək ona tənələr vurmuş, zəif rəvayətçi olduğunu bildirmiş və bununla da hədisi etibardan salmağa çalışmışlar. Lakin sonrakı fəsillərdə də qeyd edəcəyik ki, insaflı əhli-sünnə alimlərinə görə, Əba Səlt bu kimi töhmətlərdən yüksəkdə durur.

"*İman*" hədisinin yalnız Əba Səlt tərəfindən rəvayət olunduğunu iddia edən Təbərani Hənəfinin fikirlərinin əksinə olaraq onun nəqlinin yalnız Əba Səltə aid olmadığını qeyd etmək zəruridir.[5]

Darqutni Şafei, İbn Ədiy Curcani Şafei[6], Rafei Qəzvini Şafei[1] və Məzzi Şafeinin[2] şəhadətinə görə, bu hədis fərqli sənədlə nəql olunmuşdur.

---

[1] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3. səh. 123-124, 168.

[2] "Cami əş-şumul fi hədisi xatəmi ər-rusul (s)", c. 1, səh. 30.

[3] "Mənaqibe-əhle-beyt əz-didqahe-əhle-sunnə", səh. 202.

[4] "Musnədu əl-İmam Zeyd", səh. 443.

[5] Təbərani hədisin mətnini Əba Səlt vasitəsi ilə nəql edərək yazır: "Bu hədisi Əli ibn Musa ər-Rzadan (ə) yalnız Əba Səlt nəql etmişdir. Bax: "Mucəm əl-əvsət", c. 4, səh. 364, hədis: 6254; c. 6, səh: 222, hədis: 8580.

[6] "Əl-Kamil fi zuəfai ər-rical", c. 2, səh. 342.

Darqutni Şafei İmam Rzadan (ə) nəql olunan "*İman*" hədisinin sənəd və vasitələri haqqında tam insafla yazır: "Əlimizdə olan çoxsaylı nüsxələrdə həmin sənədlə nəql olunmuşdur"[3].

Burada bu rəvayətçi və vasitələrin bəzilərinə işarə edəcəyik:

1.Əbdus-Salam ibn Saleh Əba Səlt Hirəvi;

2. Muhəmməd ibn Səhl ibn Amir Bəcəli;

3. Muhəmməd ibn Ziyad Süləmi;

Məzzi Şafei Əba Səltin rəvayətini İbn Macə vasitəsi ilə nəql edərək yazır: “Məhəmməd ibn Səhl ibn Amir Bəcəli və Məhəmməd ibn Ziyad Suləmi onun ardınca Əli ibn Musar-Rzadan (ə) rəvayət etmişlər"[4].

İbn Həcər Əsqəlani Şafei də "*İman*" hədisini təsdiq edərək İmam Rzadan (ə) əlavə İmam Kazımdan (ə) da nəql edildiyini göstərmişdir[5].

Məzzi Şafei başqa yerdə Əba Səlti müdafiə edərək yazır: "İbn Macə bu hədisi nəql etmişdir. Onun sənədi çox yüksəkdir. Onu Məhəmməd ibn İsmayıl Əhməsi və Səhl ibn Zəncələ Razi vasitəsi ilə Əba Səltdən rəvayət etmişdir ki, bizim üçün iki qat sabit olmuşdur".

O, mövzunu davam etdirərək "*İman*" hədisi ilə bağlı İmam Kazım (ə) və İmam Sadiqə (ə) aid digər iki sənəd də nəql edir və Əba Səltin sözünü təsdiq

---

[1] "Ət-Tədvin fi əxbari-Qəzvin", c. 1, səh. 167-168, 462.
[2] “Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf”, c. 7, səh. 366, hədis: 10076.
[3] “Əl-Mutələf əl-muxtələf”, c. 2, səh. 1115.
[4] “Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf”, c. 7, səh. 366, hədis: 10076.
[5] Yenə orada.

edərək yazır: "Həsən ibn Əli Təmimi Təbəristani onu Məhəmməd ibn Sədəqədən, o da Musa ibn Cəfərdən (ə) nəql etmişdir. Əhməd ibn İsa ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib Ələvi onu Əbbad ibn Suheybdən, o da Cəfər ibn Məhəmməddən (ə) rəvayət etmişdir"[1].

4. Məhəmməd ibn Əsləm Hindi Tusi;

Beyhəqi Şafei də bu hədisi özünəməxsus sənədlə Məhəmməd ibn Əsləm Hindidən nəql etmişdir.

5. Davud ibn Süleyman Qəzvini;

6. Əli ibn Əzhər;

7. Heysəm ibn Abdullah;

İbn Ədiy Curcani Şafei Həsən ibn Əli ibn Saleh Ədəvi Bəsrinin tərcümeyi-halını yazarkən "*İman*" hədisinə çatdıqda yazır:

"Bu hədisi Əba Səlt, Davud ibn Süleyman Qazi Qəzvini, Əli ibn Əzhər və başqaları İmam Rzadan (ə) nəql etmişlər. Bunlar Ədəvinin nəql etdiyi Heysəm ibn Abdullahdan daha tanınmışdır"[2].

8. Əhməd ibn Abbas Sənani;

İbn Ədiy Curcani Şafei onun nəql etdiyi vasitəyə işarə etmişdir[3].

9. Əhməd ibn Amir Tayi;

Əbul-Vəfa Hələbi öz kitabında bu vasitəyə işarə vurmuşdur[4].

10. İshaq ibn Rahveyh;[1]

---

[1] "Şuəb əl-iman", c. 1, səh. 48, hədis: 17; "əl-Etiqad və əl-hidayə ilə səbil ər-rişad", səh. 180.

[2] "Əl-Kamil fi zuəfa ər-rical", c. 2, səh. 342.

[3] Yenə orada, c. 1, səh. 220.

[4] "Əl-Kəşf əl-həsis", səh. 49 və 220.

11. Məhəmməd ibn Rafe;[2]

12. Əhməd ibn Hərb;[3]

13. Yəhya ibn Yəhya;[4]

14. Əbu Zurə Razi[5].

Bu on dörd rəvayətçi "*İman*" hədisini vasitəsiz İmam Rzadan (ə) rəvayət etmişlər. Qeyd etməliyik ki, "*İman*" hədisi həmin məzmunda İmam Sadiq (ə) və İmam Kazım (ə), eləcə də digər səhabə və onların davamçılarından də nəql olmuşdur. Bu, "*İman*" hədisinin qondarma olmadığını sübuta yetirməklə yanaşı onun əleyhinə göstərilən təəssüblərin əsassız və hədisin səhih olduğunu üzə çıxarır.

1. Məhəmməd ibn Sədəqə Ənbəri;

Məzzi Şafei yazır: "O, "*İman*" hədisini İmam Kazımdan (ə) nəql etmişdir"[6].

2. Əbbad ibn Suheyb;

Məzzi Şafei yazır: "Əbbad "*İman*" hədisini İmam Sadiqdən (ə) nəql edir"[7].

3. Malik ibn Ənəs;

4. Həmmad ibn Zeyd;

5. Əhməd ibn Əbu Xeysəmə;

6. Abdullah ibn Əhəmd ibn Hənbəl;

---

[1] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125; "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.

[2] Yenə orada.

[3] Yenə orada.

[4] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.

[5] "Məaric əl-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh. 164.

[6] "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 465.

[7] "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 465; "Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf", c. 7, səh. 366, hədis: 10076.

Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei "*İman*" hədisinin qondarma olmadığını təsdiq edərək İmam Rzadan (ə) başqa dörd vasitə ilə nəql edir. Əlbəttə, bu dörd nəfərlə də kifayətlənməyib onu "mütəvatir" hesab edib yazır: "Onu çoxlu sayda rəvayətçi nəql etmişdir".[1]

7. Əli ibn Qurab;

Siyuti Şafei də bu hədisi müdafiə edib onu Əli ibn Ğurab vasitəsi ilə rəvayət edir.[2]

8. Əbu Qətadə Haris ibn Ribi Ənsari;

9. Aişə;

Bu iki vasitəni Kinani Şafei nəql etmişdir. Hansı ki, "*İman*" hədisinin doğruluğunu təsdiqləyir[3].

## *ƏHLİ-SÜNNƏNİN "İMAN" HƏDİSİNƏ BAXIŞI*

"*İman*" hədisi haqqında iki baxış mövcuddur: Bəziləri məlum hədisin yalnız Əba Səlt tərəfindən nəql olunduğunu təsəvvür edərək onun şəxsiyyətinə kölgə salmağa, onu etibardan salmağa çalışmışlar. Lakin sonda da qeyd etdiyimiz kimi birincisi, Əba Səltin zəif (rəvayətçi) olduğu əsassız və sübutsuz iddiadır. Çünki o, düz danışan və etibarlı şəxsiyyətə malik olmuşdur. İkincisi, "*İman*" hədisini yalnız Əba Səlt nəql etməmişdir. Bu hədisi digər rəvayətçilər də İmam Rzadan (ə) nəql etmişlər.

---

[1] "Əsna əl-mətalib fi mənaqibi-seyyidina Əli ibn Abu Talib (ə) “, səh. 122-126.

[2] “Əl-Ləali əl-məsnuə fi əhadis əl-məvzuə”, c.1, səh. 38.

[3] “Tənzih əş-şəriə əl-mərfuə ən əl-əxbar əş-şəniə əl-məvzuə”, c. 1, səh. 152.

Bir çox əhli-sünnə alimləri isə Əba Səltin şəxsiyyətini müdafiə edərək bu hədisin də "*Hisn*" hədisi kimi güclü sənədə malik olduğunu bildirmiş, beləcə rəvayət və rəvayətçiyə yeni dəyər vermiş, etibar qazandırmışlar. Bəziləri onu şəfa verici hədis hesab etmiş, bəziləri də onu şəfa vericiliyini sınaqdan keçirmişlər.

## *MÜVAFIQLƏR*

Əhli-sünnə alimləri bu hədisi iki şəkildə təsdiqləmişlər. Birincisi, "*İman*" hədisini təsdiq edib, haqqında fikir söyləyənlər. İkincisi, əməldə təsdiq edən, onun əzəməti, şəfavericiliyi ilə bağlı fikir söyləməkdən əlavə şəfa vericiliyini sınaqdan keçirənlər. Belələrinə Əbu Hatəm Razi Şafeini nümunə göstərmək olar. O, Əhməd ibn Hənbəlin "Silsilətuz-zəhəb" hədisi ilə xəstəni sağaltdığını iddia edir.

### *Məhəmməd ibn İdris Şafei (h.q. 204)*

Əhli-sünnə fiqh öndərlərindən olan Şafei bu hədisi qəbul və izah etmişdir[1].

### *Abdullah ibn Tahir (h.q. 230)*

O, Xorasan, Qorqan, Rey və Təbəristan (Mazandaran) valisi idi[2]. Onun şair və ədəbiyatçı oğlu Məhəmməd ibn Abdullah deyir: "Bir gün atamın yanında dayanmışdım. Əhməd ibn Hənbəl, İshaq ibn Rahveyh və Əba Səlt də bizimlə idilər. Atam dedi:

---

[1] "Məaric əl-fusul ilə mərifəti fəzli Ali ər-Rəsul və əl-Bətul", səh. 165-166.

[2] "Tarixi-Bağdad", c. 9, səh. 483-488.

"Hər biriniz mənə bir hədis nəql edin". Əba Səlt "*İman*" hədisini "Silsilətuz-zəhəb" sənədi ilə oxudu. Bəzi məclis iştirakçıları bu sənəd silsiləsinin doğurduğu təəccübü gizlətməyərək dedilər: "Bu necə sənəddir?" Atam cavab verdi: "Bu (sənəd) dəlilərin dərmanıdır. Dəli bu dərmanı qəbul etdikdə, şəfa tapıb ağıllanması lazımdır"[1].

Çox güman ki, təəccübünü bildirən şəxs Əhməd ibn Hənbəl olmuşdur. İshaq ibn Rahveyh İmam Rza (ə) Nişabura daxil olarkən hədisi eşitmişdi və təccüblənməyi mənasız idi.

***Əba Səlt Hirəvi (h.q. 236)***

Əba Səlt deyir: "Bu sənəd dəliyə oxunarsa, şəfa tapar"[2].

***Əhməd ibn Hənbəl (h.q. 241)***

Əhli-sünnə fiqh öndərlərindən olan Əhməd ibn Hənbəl deyir: "Əgər bu sənədi dəliyə oxusam, şəfa tapar"[3].

"Əgər bu hədisi bu sənədlə ruhi çatışmamazlığı olan xəstə üçün oxusam, sağalar"[4].

***İbn Macə Qəzvini (h.q. 275)***

İbn Macə bu hədis haqqında da Əba Səltdən rəvayət edərək deyir: "Əgər bu sənəd dəliyə oxunsa, şəfa tapar"[5].

---

[1] Yenə orada, c. 5, səh. 418-419.
[2] “Sunəni-İbn Macə”, c. 1, səh. 25.
[3] “Nuzhə əl-məcalis və muntəxəb ən-nəfais”, c. 1, səh. 23.
[4] "Əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 595; "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh. 346; “Nəsr əd-durər”, c. 1, səh. 362.
[5] “Sunəni-İbn Macə”, c. 1, səh. 25.

***Əbu Hatəm Razi Şafei (h.q. 277)***

Əbdur-Rəhman ibn Əbu Hatəm atası Əbu Hatəmdən nəql edərək yazır: "Həqiqətən, Əhməd ibn Hənbəl bu sənədi dəliyə oxudu və o, şəfa tapdı"[1].

***Yəhya ibn Hüseyn Həsəni (h.q. 298)***

O, İmam Rzanın (ə) hədislər toplusunun sənədi haqqında daim deyərdi: "Əgər bu sənəd dəlinin qulağına oxunsa, şəfa tapar"[2].

***Əbu Bəkr Məhəmməd ibn Hüseyn Acuri Şafei (h.q. 360)***

Bu hədis keçmiş və indiki müsəlman fəqihlərinin fikrincə, imanın ən mühüm və böyük mübahisələrindən biri hesab olunur və Quranla tam uyğundur. Allahın rəhmətindən uzaq olan xəbis və dinsiz insanlardan başqa heç kim ona qarşı çıxmaz. Bunları açıqlamaqda məqsədim budur ki, hamı ona baxsın, ondan xəbərdar olsun və möminlər üçün nəsihət olsun"[3].

O, bu hədisi Quran və sünnəyə tam uyğun olduğunu təsdiq edir.

***Darqutni Şafei (h.q. 380)***

Onun Əba Səltə qarşı olduğunun iddia edildiyinə baxmayaraq, bu hədisi qəbul edir və nəql etdikdən sonra yazır: "Bu hədis bir çox alimlərimizin əsərlərində Əba Səlt vasitəsilə rəvayət olunmuşdur"[4].

---

[1] "Nəsr əd-durər", c. 1, səh. 362.
[2] "Rəbi əl-əbrar və nusus əl-əxbar", c. 4, səh. 79, hədis: 346.
[3] "Ərbəinə hədisən", səh. 47, hədis: 12.
[4] "Əl-Mutələf əl-muxtələf", c. 2, səh. 1115.

***Mənsur ibn Hüseyn Abi (h.q. 421)***

O, bu hədisin əzəməti haqqında söhbət açaraq İbn Hənbəl və Əbu Hatəm Razi Şafeinin fikirlərini xatırlatmışdır[1].

***Əbu Nuəym İsfahani Şafei (h.q. 430)***

Əbu Nuəym də zikr olan hədis haqqında Əhməd ibn Hənbəlin maraqlı fikrini nəql edərək yazır: Əbu Əli Əhməd ibn Əli Ənsaridən eşitdim: Əhməd ibn Hənbəl mənə dedi: "Əgər bu sənədi dəliyə oxusan dəlilikdən xilas olar. Bu hədisin yeganə eybi sənədinin gözəlliyidir"[2].

***Beyhəqi Şafei (h.q. 458)***

O, "İman" hədisini nəql və qəbul etmiş, onun səhih olduğunu sübut etmək üçün Peyğəmbərə (s) aid digər hədislərdən istifadə etmişdir[3].

***Şəcəri Corcani Hənəfi (h.q. 499)***

Şəcəri Corcani də özünəməxsus sənədlə Əbu Hatəmdən Əba Səltin belə dediyini nəql edir: "Bu sənəd dəlinin qulağına oxunarsa, sağalar.[4]

***Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505)***

O da "Silsilətuz-zəhəb" hədisini təsdiqləyərək onu izah etməyə çalışmışdır[5].

---

[1] "Nəsr əd-durər", c. 1, səh. 362.
[2] "Tarixi-İsbəhan", c. 1, səh. 174.
[3] "Şuəb əl-iman", c. 1, səh. 47-48, hədis: 16-17.
[4] "Əl-Əmali əl-xəmisiyyə", c. 1, səh. 15, hədis: 16.
[5] "Şərhu hədisi-Silsilə əz-zəhəb". Bu kitabın əlyazmasının bir nüsxəsi Hindistanın Məhəmmədiyyə kitabxanasında mövcuddur. Bax: "Əhli-beyt fi məktəbə əl-ərəbiyyə", səh. 237, nömrə: 391.

***Zəməxşəri Hənəfi (h.q. 538)***

O, "Silsilətuz-zəhəb" hədisinin əzəmətindən danışarkən Yəhya ibn Hüseyn Həsəninin İmam Rzanın (ə) hədislərinin sənədi haqqındakı sözlərini yada salır. O, daim deyərmiş: "Əgər bu sənəd dəlinin qulağına oxunarsa, şəfa tapar"[1].

***İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620)***

Bəzi elm adamları demişlər: "Əgər bu sənəd dəliyə oxunsa, şəfa tapar"[2].

***Sibt ibn Cozi Hənəfi (h.q. 654)***

O, hədisin əzəmətindən danışarkən İbn Qudamə Hənbəlinin sözlərini yada salır: "Bu sənəd dəliyə oxunarsa, şəfa tapar"[3].

***Cəmaləd-Din Məzzi Şafei (h.q. 742)***

O, yazır: "İbn Macə bu hədisi nəql etmişdir. Onun sənədi çox yüksəkdir və bizim üçün sübuta yetmişdir"[4].

Sonra hədisin digər sənəd və vasitələrini nəql etmişdir.

***İbn Həcər Əsqəlani Şafei (h.q. 852)***

İbn Həcər Əsqəlani Şafei "*İman*" hədisini təsdiq etmək məqsədi ilə onu İmam Kazımdan (ə) da nəql etmişdir[5].

---

[1] "Rəbi əl-əbrar və nusus əl-əxbar", c. 4, səh. 79, hədis: 346.
[2] "Ət-Təbyin fi-ənsab əl-qurəşiyyin", səh. 133.
[3] "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.
[4] "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 465.
[5] "Tuhfə əl-əşraf bi mərifəti əl-ətraf", c. 7, səh. 366, hədis: 10076.

***Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei (h.q. 833)***

"Bu hədisdə mətn və məzmun baxımından heç bir çətinlik yoxdur. Sənədində yer alan rəvayətçilər də hamısı etibarlı şəxslərdir. Buna baxmayaraq, bəziləri İmam Rzanın (ə) xadimi (sənəddə adı keçən) Əba Səlti ləyaqətli olduğu halda zəif (rəvayətçi) hesab etmişlər. Hər halda hədis, sənədinin Peyğəmbərin (s) pak övladlarından birinə çatdığı üçün "səhih" yaxud "həsən" olmaqla istinad oluna biləcək hədisdir[1].

***Əbdur-Rəhman Səfuri Şafei (h.q. 894)***

O, bu hədisin əzəmətindən söhbət açaraq Əhməd ibn Hənbəl və Əbu Hatəm Razi Şafeinin söylədiklərini xatırladır[2].

***Siyuti Şafei (h.q. 911)***

O, qeyd olunan hədisə dəstək olaraq yazır: "Həqiqət budur ki, bu hədis saxta və qondarma deyildir"[3].

Bundan başqa hədisin digər vasitələrini də qeyd edir[4].

---

[1] "Əsna əl-mətalib fi mənaqibi-seyyidina Əli ibn Abu Talib (ə)", səh. 122-126.
[2] “Nuzhə əl-məcalis və muntəxəb ən-nəfais”, c. 1, səh. 23.
[3] “Şərhi Sunəni-İbn Macə, c. 1, səh. 52.
[4] “Əl-Ləali əl-məsnuə fi əhadis əl-məvzuə”, c.1, səh. 38.

***Əbul-Həsən Əli ibn Məhəmməd Kinani Şafei (h. q. 963)***

O, bu hədisin "səhih" olduğunu iki mərhələdə sübut edir:

Birinci mərhələdə Əba Səltin şəxsiyyətini müdafiə edir və bu yolla hədisin etibarlı olduğunu sübuta yetirir. İkinci mərhələdə isə "*Hisn*" və "*İman*" hədislərinin məzmununu təsdiqləyən iki şahid göstərir və beləcə heç bir irada yer qoymur. O, yazır: "Bu hədisin iki şahidi var:

Əbu Qətadə deyir: "Kim Allahın yeganəliyinə, Peyğəmbərin risalətinə şəhadət versə, bunu sidqi-ürəkdən qəbul etsə, cəhənnəm odu onu yandırmaz". Beyhəqi onu, "Şuəbul-iman"da nəql etmişdir.

Aişə deyir: "İman dil ilə iqrar, ürəklə təsdiq, bədən üzvləri ilə əməl etməkdən ibarətdir". Onu Deyləmi və Şirazi "əl-Əlqab"da nəql etmişlər[1].

***Əbul-Həsən Sindi Hənəfi (h.q. 1138)***

Əbul-Həsən Sindi "Səhih-Buxari" və "Sunəni-İbn Macə"nin izah edənlərindəndir. O, bu rəvayəti təsdiq etmək məqsədi ilə əhli-sünnə böyüklərinin söylədiklərini xatırladır, Əba-Səltin rəvayətçi kimiliyini müdafiə edir və hədisi təsdiq etmək üçün Siyuti Şafeidən belə nəql edir: "Həqiqət budur ki, bu hədis saxta və qondarma deyil"[2].

---

[1] "Tənzih əş-şəriə əl-mərfuə ən əl-əxbar əş-şəniə əl-məvzuə", c. 1, səh. 152.

[2] "Şərhu Sunəni-İbn Macə, c. 1, səh. 52.

***İcluni Şafei (h.q. 1162)***

O, İbn Cozi Hənbəlinin qeyd olunan hədisin qondarma olmağı ilə bağlı fikirlərini rədd edərək Əba Səlti müdafiə edir və hədisin təsdiqi yönündə yazır: "Bu sənədin maraqlı və incə tərəflərindən biri sənəd silsiləsi boyunca övladların atalardan nəql etməsidir"[1].

Əhli-sünnənin böyük alimlərinin məlum hədislə bağlı söylədiklərinə diqqət yetirdikdə Siyuti Şafeinin "Həqiqətən bu hədis saxta deyil"[2] sözlərinin həqiqət olduğunu görür, İbn Cozi Hənbəli və digərlərinin "*İman*" hədisinin saxta olduğu ilə bağlı söylədiklərinin əsassız olduğuna şahid olur və bu hədisin həqiqətən İmam Rza (ə) tərəfindən buyrulduğuna əmin oluruq.

***Qunduzi Hənəfi (h.q. 1294)***

Qunduzi də məlum hədisi İbn Macədən nəql edib Əba Səltin onun haqqında söylədiklərini xatırladaraq təsdiq edir[3].

***Məhəmməd Fuad Əbd əl-Baqi Hənəfi***

O, da "Sünəni-İbn Macə"yə yazdığı izahda Əba-Səltin sözlərini təkrar edərək təsdiq edir və yazır: "Dəlinin şəfa tapması sənəd silsiləsində yer alan yaxşı bəndələrə görədir. Onlar Peyğəmbər (s) ailəsinin bir hissəsidirlər. Allah onlardan razı olsun"[4].

[1] "Kəşf əl-xifa və muzil əl-ilbas əmma iştəhərə min əl-əhadis əla əlsinəti ən-nas", c. 1, səh. 22.
[2] "Şərhi Sunəni-İbn Macə, c. 1, səh. 52.
[3] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3. səh. 124.
[4] "Təliqətu Sunəni-İbn Macə, c. 1, səh. 26.

***Doktor Faruq Himadih***

O, da "İman" hədisini qeyd edərək Əba-Səltin sözlərini təsdiq edərək yazır: "Çünki (sənəd) Əhli-beyt (ə) silsiləsidir (Allah onlardan razı olsun)[1].

## *MÜXALIFLƏR*

Öncə də qeyd olduğu kimi bəziləri "*İman*" hədisinin yalnız Əba-Səlt tərəfindən nəql olunduğunu güman edərək onun zəif olduğunu göstərib rəvayətçi və rəvayəti etibardan salmağa çalışmışlar.

Üçüncü fəsildə əhli-sünnə alimlərinin Əba-Səlt haqqındakı görüşlərini, onu bir rəvayətçi kimi yerini və hansı məzhəbə mənsub olduğunu araşdıracağıq.

## *"HİSN" VƏ "İMAN" HƏDİSLƏRİ EYNİDİRMİ?*

"*Hisn*" və "*İman*" hədisləri bir hədisdir, yoxsa fərqli şəraitdə deyilmiş iki ayrı hədisdir? İbn Həcər Heysəmi Şafei "*Hisn*" və "*İman*" hədislərinin fərqli şəraitdə deyilən iki ayrı hədis olduğunu təsdiq edərək yazır:

"Bəlkə də o ikisi iki ayrı hadisədir"[2].

Birincisi, bu iki rəvayətin İmam Rza (ə) tərəfindən deyildiyinə heç bir şəkk-şübhə yoxdur. İkincisi, bu iki hədisin eyni hədis olduğuna və bir vaxtda söyləndiyinə dair hər hansı bir dəlil yoxdur.

---

[1] "Əz-Zuəfa", səh. 108.

[2] "Əs-Səvaiq əl-muhriqə", c. 2, səh. 595.

Üçüncüsü, şahidlər hər iki hədisin Nişaburda söyləndiyini rədd etmir.

Əhli-sünnə qaynaqlarına əsasən demək olar ki, "*İman*" hədisi İmam Rza (ə) Nişabura daxil olarkən, "*Hisn*" hədisi isə Nuşaburdan çıxarkən deyilmişdir.[1]

## *İMAMIN (Ə) NİŞABURA GİRİŞİ, ƏHALİ VƏ ƏHLİ-SÜNNƏ ALİMLƏRİNİN MÖVQEYİ*

İmam Rzanın (ə) Nişabura girişini, əhalinin müxtəlif təbəqələrinin, əhli-sünnə alimlərinin İmamın (ə) gəlişinə münasibətini əks etdirən rəvayətlərə bir daha nəzər salsaq çox mühüm məqamlar üzə çıxacaq və bir çox cavabsız suallar öz cavabını tapacaq. Buna görə də bu tarixi hadisə ilə bağlı məlumatları nəzərdən keçirir və lazımi məqamlara toxunacağıq.

### *Vaqidinin verdiyi məlumat*

"İki yüzüncü il çatdıqda Məmun (İmamın (ə) yanına) məmurlarını göndərdi və onu Mədinədən Xorasana doğru yola çıxartdılar... Elə ki, Nişabura çatdı oranın Yəhya ibn Yəhya, İshaq ibn Rahəvəyh, Məhəmməd ibn Rafe, Əhməd ibn Hərb və digər

---

[1] "Yənabi əl-məvəddə li zəvi əl-qurba", c. 3, səh. 122-124. Bəzi tarixçilərə görə, birincisi, "Silsilə əz-zəhəb" hədisini İmam (ə) Nişaburdan çıxarkən buyurmuşdur. İkincisi, onun məzmunu "*İman*" hədisi yox, "*Hisn*" hədisi olmuşdur. Bax: "Musuə ət-tarix əl-İslamiyyə", c. 7, səh. 470.

alimləri ondan hədis dinləmək və təbərrük almaq üçün hüzuruna getdilər"[1].

***İbn Cozi Hənbəlinin verdiyi məlumat***

Əbul-Fərəc İbn Cozi Hənbəli belə məlumat verir: "Nişabura çatdıqda qaraya çalan bir kül rəngli qatırın üzərindki kəcavədən çıxdı. Yəhya ibn Yəhya, İshaq ibn Rahveyh, Məhəmməd ibn Rafe, Əhməd ibn Hərb və digər şəhər alimləri Həzrətin yanına gəldilər. O, həzrət (ə) bir müddət orda qaldı"[2].

***Hakim Nişaburi Şafeinin verdiyi məlumat***

Təssüflər olsun ki, bu gün "Tarixi-Nişabur" kitabı əlimizdə deyil. Bu qiymətli tarixi əsər aradan getmişdir. Buna görə də Hakim Nişaburinin verdiyi tarixi məlumatları vaxtilə kitabdan istifadə etmiş digər hədisşünas və tarixçilərdən öyrənirik.

Hakim Nişaburinin verdiyi məlumatları Əhməd ibn Məhəmməd ibn əl-Hüseyn Şafei (VIII əsr)[3], İbn Səbbağ Maliki (h.q. 855)[4], İbn Həcər Heysəmi Şafei (h.q. 974)[5], Qərmani Dəməşqi (h.q. 1019)[6], Əbdur-Rəuf Mənnavi Şafei (h.q. 1013)[7], Şəbxənci Şafei (h.q. 1298)[8] geniş şəkildə, İbn Həcər Əsqəlani Şafei (h.q 852)[9] və Zəhəbi Şafei (h.q. 748)[1] isə ixtisarla nəql

---

[1] "Təzkirə əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.
[2] "Əl-Muntəzəm fi təvarix əl-muluk və əl-uməm", c. 6, səh. 125.
[3] "Təlxisu Tarixi-Nişabur", səh, 131 -132.
[4] "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 242-243.
[5] "Əs-Səvaiq əl-muhriqə"; c. 2, səh. 594-595.
[6] “Əxbar əd-duvəl və asar əl-uvəl”, səh. 115.
[7] “Feyz əl-qədir bi şərhi Cami əs-səğir", c. 4, səh. 489 -490.
[8] "Nur əl-əbsar fi mənaqibi Ali-beyt ən-Nəbi əl-muxtar (s)", səh. 236.
[9] "Siyəru əlam ən-nübəla", c. 9, səh. 390.

etmişlər. Qeyd etmək lazımdır ki, Səmhudi Şafei (h.q. 911)[2] və Xunci İsfahani Hənəfi (h.q. 927)[3] bu hadisəni bilavasitə "Tarixi-Nişabur"dan yox, İbn Səbbağ malikinin kitabı vasitəsi ilə nəql etmişlər.

İbn Həcər Heysəmi Şafei İmamın (ə) Nişabura giriş anını Hakim Nişaburidən belə rəvayət edir:

"İki hədis hafizi Əbu Zurə Razi və Məhəmməd ibn Əsləm Tusi bir neçə hədisçi və elm adamları ilə birgə onun yanına gəldilər və Ondan xahiş etdilər ki, üzünü onlara göstərsin və əcdadlarından hədis nəql etsin..."[4].

Digər bir nəqldə deyilir: "Əli ibn Musar-Rza (ə) Nişabura daxil oldu. Qaraya çalan kül rəngli qatır üzərində idi. Yəhya ibn Yəhya, İshaq ibn Rahveyh, Əhməd ibn Hərb və Məhəmməd ibn Rafe kimi şəhər alimləri onu qarşılamağa çıxdılar və miniyinin yüyənindən yapışdılar. Bu an İshaq ona dedi: Səni and verirəm əcdadlarının haqqına, bizim üçün bir hədis buyur. Həzrət buyurdu: ..."[5].

İbn Səbbağ Maliki də Hakimdən nəql edərək yazır: İmam Rza (ə) şəhid olduğu səfərdə Nişabura daxil olduğu vaxt qaraya çalan kül rəngli qatır üzərində qara yun parça ilə örtülü kəcavənin içində idi. Onun üçün Nişaburun bazar yolu açılırdı. Əhli-sünnənin iki böyük alimi Əbu Zurə və Məhəmməd

---

1 "Təhzib ət-təhzib", c. 7, səh. 339.
2 "Cəvahir əl-əqdəyn fi fəzli əş-şərəfəyn", səh. 342 -343.
3 "Vəsilə əl-xadim ila əl-məxdum", səh. 229; "Mehmannameye-Buxara", səh. 342-345.
4 "Əs-Səvaiq əl-muhriqə"; c. 2, səh. 594.
5 "Kəşf əl-xifa və muzil əl-ilbas əmma iştəhərə min əl-əhadis əla əlsinəti ən-nas", c. 1, səh. 22;

ibn Əsləm o Həzrətin hüzuruna gəldilər. Onları çoxlu sayda tələbə, hədisçi və elm adamları müşayiət edirdi. Onlar (Əbu Zurə və Məhəmməd ibn Əsləm ) dedilər: "Ey böyük İmamların övladı böyük Seyid! Səni and veririk pak və əziz əcdad və sələflərinə, mübarək üzünü bizə göstər və bizim üçün əcdadlarından və baban Məhəmməddən (s) bir hədis nəql et ki, səni onunla yad edək. İmam (ə) miniyinin dayandırılmasını əmr etdi və xidmətçilərinə kəcavənin pərdələrini açmalarını tapşırdı. Qələbəliyin gözü Həzrətin (ə) nurani simasına yönəldi. Bir çoxlarının gözündən yaş axmağa başladı. (Hər tərəfdən) səslər ucaldı, bəziləri toz-torpağ üstünə özlərin atdılar, bəziləri isə miniyin ayaqlarından öpməyə başladılar. Ağlaşma səsi hər yeri bürümüşdü. Əbu Zurə və Məhəmməd ibn Əsləm camaatın sakitliyi bərpa etməsini tələb etdilər ki, İmamın (ə) səsi eşidilsin. İmam Rza (ə) buyurdu: "Atam, atası İmam Sadiqdən (ə), o, atası İmam Baqirdən (ə), o, atası İmam Səccaddan (ə), o, atası İmam Hüseyndən (ə), o, atası İmam Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: "Cəbrayıl dedi: Allahın belə buyurduğunu eşitdim: "*La ilahə illəllah*" cümləsi mənim qalamdır. Onu deyən mənim qalama daxil olmuşdur və Qiyamət günü əzabımdan amanda qalacaqdır".

Sonra kəcavənin pərdəsini çəkib hərəkət etdi. Əlinə qələm və mürəkkəb alıb yazanları saydılar. Onlar iyirmi minə yaxın idilər[1].

---

[1] "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 242-243.

## *TARİXİ MƏLUMATLARDAN ƏLDƏ OLUNAN MƏQAMLAR*

Bu mühüm hadisədən əldə olunan məqamları əsasən iki hissəyə ayırmaq olar:

A) Əhalinin İmama (ə) münasibəti:

1. İmam (ə) şəhərə girərkən əhalinin onu böyük və bənzərsiz təntənə ilə qarşılaması;

2. Əhalinin sevinc göz yaşları və özünə yer tapa bilməməsi;

3. Bir çoxlarının torpağa bulanması;

4. Miniyinin ayaq izlərini öpmələri;

B) Məşhur əhli-sünnə alimlərinin İmam Rzaya (ə) münasibəti;

1. Alimlərin İmamdan (ə) təbərrük alması;

2. Məşhur əhli-sünnə alimlərinin şagirdləri və digər elm adamları ilə İmamı (ə) qarşılamağa çıxmaları;

3. Əhli-sünnə alimlərinin göz yaşı tökərək İmamın (ə) üzünü göstərməsini xahiş etmələri;

4. Əhli-sünnə alimlərinin göz yaşı içində İmamdan (ə) pak əcdadlarından hədis nəql etməsini xahiş etmələri;

5. On, iyirmi, yaxud da otuz min nəfərin olanları qələmə alması;

6. Əhli-sünnə alimlərinin İmamın (ə) miniyinə toxunmaq üçün bir-birləri ilə rəqabət aparması.

Çox güman ki, bu tarixi hadisənin əhli-sünnə mötəbər-hədis kitablarında yer almamasına səbəb də məhz bu məqamlardır.

## *NIŞABUR ALİMLƏRİNİN MƏQAMI*

Tarixi məlumatlarda adları qeyd olunan şəxsiyyətlərin məqamından xəbərdar olduqda acıqca bəlli olur ki, o dövrün əhli-sünnə alimləri böyük məqam və əzəmətlərinə baxmayaraq, İmamın (ə) qarşısında diz çökür, göz yaşları içində ondan üzünü göstərməsini, pak əcdadlarından hədis söyləməsini xahiş edirlər. Aşağıda o alimlər haqqında qısa məlumatı diqqətinizə çatdırırıq.

***1. Adəm ibn Əbu Əyas Əsqəlani (h.q. 220)***

O, hədisçilərin öndəri, etibarlı hədisçi, şamlıların böyüyü və zikr olunan hədisi düzgün qeyd edən altı nəfərdən biri olmuşdur. Zəhəbi Şafei onun haqqında yazır: "İmam, hafiz, rəhbər, şamlıların şeyxi Əbul-Həsən Xorasani"[1].

Əbu Hatəm Razi Şafei yazır: "Etibarlı, əmanətdar, abid və Allah bəndələrinin ən yaxşısı idi"[2].

Əhməd ibn Hənbəl yazır: "Yanında hədis düzgün qeyd olunan altı nəfərdən biridir"[3].

***2. Əbu Zəkəriyya Yəhya ibn Yəhya Təmimi Minqəri Nişaburi (h.q. 226)***

O, Şeyxül-İslam, Xorasan alimi və bəzilərinin təbirincə dünya əhlinin (bəşəriyyətin) imamı idi.

Əbu Bəkr ibn Əbdur-Rəhman yazır:

"Şeyxül-İslam, Xorasani alim və hafiz idi".

---

[1] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 335.
[2] "Əl-Cərh və ət-tədil", c. 2, səh. 268.
[3] "Tarixi-Bağdad", c. 7, səh. 28.

Əbul-Abbas Surac yazır:
"Dünya əhlinin (bəşəriyyətin) imamı idi".
Əbu Əhməd əl-Fərra yazır:
"O, öndər, ülgü və İslam üçün nur idi"[1].
Nəsai Şafei yazır:
"O, etibarlı, inanılan və höccət idi"[2].
Əhməd ibn Səyyar Mərvəzi Şafei yazır:
"O, etibarlı çox yaxşı insan və alim idi"[3].

***3. Əbu Əbdullah Əhməd ibn Hərb ibn Firuz Nişaburi (h.q. 234)***

O, öndər, hədisçilərin örnəyi, Nişabur və fəqihlərin dini lideri, abidlərin böyüyü və bənzərsiz şəxsiyyət idi. Zəhəbi Şafei onun haqqında yazır:

"O, örnək rəhbər, Nişaburun zahid şeyxi, böyük abid və fəqihlərdən olmuşdur".

Yəhya ibn Yəhya Təmimi onun haqqında yazır:

"Əgər Əhməd ibn Hərb zahid deyilsə, kimin zahid olduğunu bilmirəm"[4].

***4. Əbu Yəqub İshaq ibn Rahveyh Mərvəzi (h.q. 238)***

O, əhli-sünnə öndərlərindən və din alimlərindəndir. Hansı ki, hədis, fiqh kimi elmlərə yiyələnmiş, sədaqət və təqva kimi xüsusiyyətləri özündə toplamışdır. Onun şafei və ya hənbəli olmasında fikir ayrılığı var. Siyuti Şafei onun haqqında yazır:

---

[1] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 512.
[2] "Təhzib əl-kəmal fi əsmai ər-rical", nömrə: 1524.
[3] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 512.
[4] Yenə orada, c. 11, səh. 32-34

"İbn Rahveyh müsəlmanların rəhbərlərindən, din alimlərindən biri idi. O, hədis, fiqh elmələrinə yiyələnmiş, sədaqət, təqva və zahidlik kimi etik sərvətləri özündə toplamışdır[1].

***5. Əbul-Həsən Məhəmməd ibn Əsləm Kindi Tusi (h.q 242)***

O, etimadlı və hafiz idi. Elm və bilikdə Əhməd ibn Hənbəl kimi idi. Siyuti Şafei onun haqqında yazır:

"Etimadlı, hafiz və zahidlərin övliyalarından idi".

İbn Xuzeymə Şafeidən nəql edərək yazır:

"O, bu ümmətin İlahi alimlərindən idi. Mənim iki gözüm onun kimisini görmədi. Əhməd ibn Hənbələ bənzəyirdi"[2].

***6. Əbu Əbdullah Məhəmməd ibn Rafe Quşeyri Hənbəli (h.q. 245)***

O, öz dövründə Xorasanın böyüyü, etimadlı və sədaqətli idi.

Hakim Nişaburi Şafei onun haqqında yazır:

"Öz dövründə sədaqət və elm kəsb etmək üçün səfərə çıxmaqda Xorasanın şeyxi idi".

Müslüm və Nəsai Şafei yazırlar:

"İbn Rafe etimadlı və inanılan şəxsdir"[3].

Zəhəbi Şafei yazır:

"O, hafiz imam, örnək höccət və böyüklərin qalığı idi"[4].

---

[1] "Təbəqat əl-hifaz", səh. 191-192.
[2] Yenə orada.
[3] "Əl-Vafi bil-vəfəyat", c. 37, səh. 68.
[4] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 214.

***7. Nərs ibn Əli Cəhzəmi, yaxud Cuhni (h.q. 250)***

O, ən inanılan hafizlərdən, ən bilici və böyük hədisçilərdən idi. İbn Əbu Hatəm Razi Şafei yazır:

"Nəsr mənim üçün daha sevimli, daha etimadlı və hafizdir. Nəsr etibarlıdır"[1].

Nəsai Şafei və İbn Xəraş yazırlar:

"O, etibarlı (hədisçidir)"[2].

Abdullah ibn Məhəmməd Fərhəyani yazır:

"Fikrimcə, Nəsr görkəmli şəxsiyyətlər sırasındadır"[3].

Zəhəbi Şafei yazır:

"O, hafiz, çox bilici, etibarlı və böyüklərdən biri idi. Nəsr ibn Əli hədis nəql etdiyi rəvayətçilərin adını yazıb saxlayan qabaqcıllardandır"[4].

***8. Əbu Zurə Ubeydullah ibn Əbdul-Kərim Razi Qureyşi Məxzumi Hənbəli (h.q. 261)***

O, Xorasan hədisçilərinin imamı, etimadlı, hafiz olmuşdur. Siyuti şafei onun haqqında yazır:

"İslamda hədis hafizlərindən və görkəmli şəxsiyyətlərdən biri idi"[5].

İbn Əbu Hatəm Razi Şafei yazır:

"Əbu Zurədən təvazökar kimsə görmədim. O və Əbu Hatəm Xorasan rəhbərlərindən olublar"[6].

Nəsai Şafei onun haqqında yazır:

"O, etimadlıdır".

---

[1] "Əl-Cərh və ət-tədil", c. 8, səh. 266.
[2] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 135.
[3] "Tarixi-Bağdad", c. 13, səh. 288.
[4] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 135.
[5] "Təbəqatul-huffaz", səh. 254.
[6] "Əl-Cərh və ət-tədil", c. 8, səh. 266.

Zəhəbi Şafei isə onu "İmam və hafizlərin seyyidi"[1] kimi yad edir.

***9. Məhəmməd ibn İshaq ibn Xuzəymə Şafei (h.q. 311)***

Xorasanda imamət və hədis hafizliyi onunla sona yetdi. O, əvəzsiz şəxsiyyət idi. Zəhəbi Şafei onun haqqında yazır:

"Xorasanda imamət və hədisçilik onunla sona yetdi".

İbn Hibban Şafei yazır:

"Yer üzündə hədis sahəsini İbn Xuzeymə kimi bilən ikinci bir fərd görə bilmədim. O, rəvayətlərin səhih sözləri ilə sonradan artırılan sözləri ayırd edə bilirdi. Sanki Peyğəmbərin (s) sünnəsi, onun hədisləri İbn Xuzeymənin gözləri önündə idi".

Darqutni Şafei yazır:

"O, höccət imam və misilsiz idi"[2].

10. Məhəmməd ibn Əbdul-Vəhhab Əbu Əli Səqəfi Şafei (h.q. 328)

O, hədisçilərin qabaqcılı, Xorasanın böyüyü, dövrünün əhli-sünnə mənsublarının təbirincə, Allahın yer üzündə höccəti idi. Zəhəbi Şafei onun haqqında yazır:

"O, imam, hədisşünas, fəqih, əhatəli elmə malik bilici, zahid, abid və Xorasan şeyxi idi. Əbu Əli öz dövründə Allahın yaratdıqları arasında höccəti idi. Əksər şəriət elmlərində öncül idi[3]".

---

[1] "Siyəru əlam ən-nübəla", c. 10, səh. 135.
[2] Yenə orada, c. 14, səh. 372.
[3] Yenə orada, c. 14, səh. 281-282.

Qeyd olunan şəxsiyyətlərin əhli-sünnə arasındakı məqamı və İmamın (ə) şəxsiyyəti qarşısında diz çökmələri onun elmi və mənəvi ideallığının göstəricisidir.

# ÜÇÜNCÜ FƏSİL

## *ƏBA SƏLT HIRƏVİ ƏHLİ-SÜNNƏNİN GÖZÜ İLƏ*

Bəziləri əhli-sünnə alimlərinin "*Hisn*" və "*İman*" hədislərinin təsdiqi ilə bağlı davranış və sözlərini nəzərə almadan bu iki hədisin saxta və qondarma olduğu fikrini önə çəkmişlər. Qeyd olunan iki hədisin yalnız Əba Səltə aid olduğunu düşünərək onları Əba Səltin qondardığını iddia etmiş və bununla da hədisləri etibardan saldıqlarını sanmışlar. Lakin öncə də qeyd olunduğu kimi "*Hisn*" və "*İman*" hədisləri yalnız Əba Səltə məxsus deyil. Hər iki hədisi on minlərlə vasitə nəql etmişdir.

Bütün bunları nəzərə alaraq iddiaların əsassız olduğunu göstərmək üçün Əba Səltin şəxsiyyəti, bir rəvayətçi kimi elmi məqamı haqqında əhli-sünnə alimlərinin görüşlərini öyrənməyə çalışacağıq.

## *ƏBA SƏLTİN RƏVAYƏTÇİ KİMILİYİ*

İmamiyyəyə görə, Əba Səlt etimadlı, düz danışan və nəql etdiyi rəvayətlər səhih olan rəvayətçilərdəndir. Lakin əhli-sünnənin rical kitablarında isə Əba Səltin şəxsiyyəti və rəvayətləri ilə bağlı üç fərqli baxış mövcüddür.

Birinci baxış: Bu cərgədə məzhəb təəssübündən uzaq duraraq Əba Səltin rəvayətçi şəxsiyyəti və rəvayətlərini qəbul edənlər yer almışlar.

İkinci baxış: Bu cərgədə Əba Səltin rəvayətçi kimiliyini qəbul edən, lakin nəql etdiyi hədislərə yalan və ya saxtakarlıq kimi ittihamlar olmadan tənqidi yanaşanlar yer alır.

Üçüncü baxış: Burada isə Əba Səltin rəvayətçi kimliyinə qarşı çıxan və rəvayətlərini rədd edənlər yer alır.

Beləlləri öz məzhəb təssübkeçliyini elmi məsələlərə qatmış, əsassız olaraq, günahı yalnız Əhli-beyt (ə) sevgisi və onların rəvayətlərini nəql etmək olan Əba Səlti kəskin rədd etmiş, rəvayətlərini yalan, saxta adlandırmışlar.

***Birinci baxış:***

Əba Səlt Hirəvi əhli-sünnəyə görə, şiə meyilli sünnü olmasına baxmayaraq, istər öz müasirləri, istərsə də sonrakı əhli-sünnə alimləri yanında özünəməxsus yeri, hörmət və məqamı olmuşdur.

Tarixi məlumatlardan bəlli olur ki, Əba Səlt əhli-sünnə alimləri tərəfindən böyük hörmətlə anılmışdır. O, İshaq ibn Rahveyh, Əhməd ibn Hənbəl[1], Əbdul-Rəzzaq Sənani, Yəhya ibn Məin, Əhməd ibn Məin Səyyar Mərvəzi Şafei[2], Məhəmməd ibn Abdullah ibn Numeyr[3] və Məhəmməd ibn Yaqub Fəsəvi[4] kimi görkəmli şəxsiyyətlərin yaxın dostu olmuş və daim aralarında keçirilən elmi toplantıların iştirakçısı olmuşdur.

[1] "Tarixi-Bağdad", c. 5, səh. 418-419.
[2] "Tarixi-Bağdad", c. 11, səh. 47.
[3] "Mərifə ər-rical", c. 1, səh. 79.
[4] "Əl-Mərifə və ət-tarix", c. 3, səh. 77.

Əhli-sünnənin böyük və insaflı alimləri məzhəb təssübkeşliyindən uzaqda və Əba Səltin şiə meilliliyini bilərək onun güclü və etibarlı rəvayətçi olduğunu bildirmişlər. Rəvayətlərini qəbul etməklə kifayətlənməmiş, ondan hədis söyləmiş və onu hafiz, etibarlı, inanılan, düzdanışan, dəqiq, ədib, fəqih, alim kimi titullarla yad etmişlər. Əba Səlt haqqında bu fikirdə olan alimlər aşağıdakılardır: Yəhya ibn Məin, İcli, Əbu Davud Səcistani Hənəfi, Əbu Yəla Qəzvini, Məzzi Şafei, Məhəmməd ibn Məhəmməd Cəzəri, İbn Həcər Əsqəlani Şafei, İbn Təcri Bərdi Hənəfi, Əbul-Həsən Kinani Şafei, Əbul-Həsən Sindi Hənəfi və İcluni Şafei.

***Yəhya bin Məin (h.q. 233)***

Hakim Nişaburi Şafei yazır:

"Hədisçilərin rəhbəri Yəhya ibn Məin Əba Səltin etibarlı olduğunu bildirmişdir"[1].

Yəhya ibn Məin müxtəlif şəraitdə Əba Səltin rəvayətçi kimliyini, şəxsiyyətini müdafiə etmiş, şiə olduğunu bilə-bilə haqqında gözəl sözlər söyləmişdir. Bu, Yəhya ibn Məinin Əba Səltə nə qədər dəyər verdiyinin göstəricisidir.

Abbas ibn Məhəmməd Dəvri yazır:

Yəhya ibn Məindən Əba Səlt haqqında soruşdum. O, dedi: "Etibarlıdır"[2].

Saleh ibn Məhəmməd yazır:

Yəhya ibn Məindən Əba Səlt haqqında soruşdum. O, dedi: "Əba Səlt düz danışandır"[3].

[1] "Təhzib ət-təhzib", c. 6, səh. 286-287.
[2] "Mustədrək əla əs-səhiheyn", c. 3, səh. 138.
[3] Yenə orada.

İbn Muhriz yazır:

"Yəhya ibn Məindən Əba Səlt haqqında soruşduqda dedi:

"Əba Səlt yalan danışan rəvayətçilərdən deyil"[1].

İbrahim ibn Abdullah ibn Cuneyd yazır: "Yəhya ibn Məindən Əbu Səlt haqqında soruşduqda dedi: "O, (hədis) eşidib (nəql edənlərdəndir). Onu yalançı kimi tanımıram".[2]

Başqa yerdə Yəhya ibn Məindən nəql edir:

"Əba Səlt bizim yanımızda yalan danışanlardan sayılmır"[3].

Başqa yerdə Yəhya ibn Məin qəti olaraq deyir:

"Əba Səlt etibarlı və düzdanışandır. Lakin şiəmeyillidir"[4].

Yəhya ibn Məin müxtəlif şəraitlərdə Əba Səlti müdafiə edir və onun hədis saxtalaşdırmaq kimi ittihamlardan uzaq olduğunu bildirir.

Əba Səltə qarşı irəli sürülən ittihamlardan biri onun "Mən elmin şəhəri, Əli isə qapısıdır" hədisini nəql etməsidir. Bəziləri Əba Səltin onu özündən qondardığını güman etmişlər. Lakin Yəhya ibn Məinin hədisin nəql olunduğu vasitələr haqqında söylədiklərindən və Əba Səltin doğru danışan, etibarlı olduğunu bildirdikdən sonra deyilən ittihamda aradan getdi[5].

---

[1] "Mərifə ər-rical", c. 1, səh. 79.

[2] "Tarixi-Bağdad", c. 11, səh. 48-49; "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 463; "Təhzib ət-təhzib", c. 6, səh. 286.

[3] Yenə orada.

[4] Yenə orada.

[5] "Tarixi-Bağdad", c. 11, səh. 48-49; "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 463; "Təhzib ət-təhzib", c. 6, səh. 286; "Mustədrək əla əs-səhihəyn", c. 3, səh. 137.

Saleh ibn Məhəmməd yazır:

"İbn Məinin Əba Səltin yanına gəldikdə ona (hörmətlə) salam verdiyini gördüm"[1].

Bu, Əba Səltin necə böyük məqama malik olduğunu göstərir. Belə ki, hədisçilərin öndəri Yəhya ibn Məin onun yanına gedir və ilk olaraq salam verir.

***İcli (h.q. 261)***

O, Əba Səlt haqqında yazır:

"Əbdu-Salam ibn Saleh bəsrəli və etibarlıdır"[2].

***Əba Davud Səcistani (h.q. 275)***

O, Əbu Səlt haqqında yazır:

"Əba Səlt (hədis söyləməkdə) diqqətli idi"[3].

***Məhəmməd ibn İsmayıl Buxari (h.q. 256)***

O, Əba Səltin müasiri olmuş və onunla eyni bölgədə yaşamışdır. Əba Səlt dövrünün görkəmli hədisçiləri ilə sıx əlaqədə, yaxın münasibətdə olduğu, tez-tez elmi səfərlərə çıxdığı bir halda onun xoş sədası Buxariyə çatmamış olmazdı. Məhz elə buna görə də Buxari "Kitab əz-zuəfa" kitabında onun adını çəkmir. Bu, bir daha göstərir ki, Əba Səlt zəif rəvayətçi olmamışdır.

---

[1] "Mustədrək əla əs-səhiheyn", c. 3, səh. 137; "Siyəru əlam ən – nübəla", c. 8, səh. 448.

[2] "Tarix əs-siqat", səh. 303.

[3] "Təhzib ət-təhzib", c. 6, səh. 287.

***İbn Şahin (h.q. 385)***

O, Əba Səltin şiəliyə meyilliyini vurğulamasına baxmayaraq, təssubkeşlikdən uzaq duraraq onun düzdanışan və etibarlı olduğunu bildirir.[1]

***Hakim Nişaburi Şafei (h.q. 405)***

O, Əba Səlt haqqında yazır:

"Hədisçilərin öndəri Yəhya ibn Məin onun etimadlı odluğunu təsdiq etmişdir"[2].

Başqa yerdə qəti şəkildə bildirir:

" Əba Səlt etibarlı və sədaqətlidir"[3].

***Əbu Yəla Qəzvini (h.q. 456)***

O, Əba Səltin əhli-sünnə alimləri arasında xüsusi yeri olduğuna işarə edərək yazır:

"Əba Səlt məşhur (rəvayətçidir) və böyüklər ondan rəvayət söyləmişlər"[4].

---

[1] "Tarixi-əsma əs-siqat", səh. 227.

[2] "Təhzib ət-təhzib", c. 6, səh. 286-287; "Mustədrək əla əs-səhiheyn", c. 3, səh. 137.

[3] "Mustədrək əla əs-səhiheyn", c. 3, səh. 137. İbn Həcər Əsqəlani Hakim Nişaburiyə isnad edərək yazır: O, Əba Səltin "munkər" hədislər nəql etdiyini bildirmişdir ("Təhzib ət-təhzib", c. 6, səh. 287). Hakimin belə bir fikir sölədiyinin döğruluğunu qəbul etsək belə bu onun Əba Səlti etimadlı hesab etməsi ilə ziddiyyət təşkil etmir. Çünki əhli-sünnə hədisşünaslıq qarşıdurmalarına görə, rəvayətçinin etibarlı olmasını kölgə altına almır (Luknəvi Hənəfi, "ər-Rəfu və ət-təkmil fi cərhi və ət-tədil", səh. 98). Bundan başqa keçmiş əhli-sünnə rical alimləri də Əbu Səltin etibarlı rəvayətçi olduğunu bildirmişlər.

[4] "Əl-İrşad fi mərifəti uləma əl-hədis", səh. 335.

***Hakim Həsəkani Hənəfi (təqribən h.q. 490)***

"Əba Səlt Əbdus-Salam ibn Saleh Hirəvi etibarlıdır. Yəhya ibn Məin onu mədh etmiş və demişdir: (Əba Səlt) doğru danışandır"[1].

***Məzzi Şafei (h.q. 742)***

O, Əba Səlti xüsusi hörmətlə yad edir və yazır:

"Əba Səlt Hirəvi Nişaburda məskunlaşdı. Hədis toplamaq üçün Bəsrə, Kufə, Yəmən və Hicaza səfər etmişdir. O, Əli ibn Musa ər-Rzanın (ə) xidmətkarı, ədalətçi, fəqih və elm adamı idi. İbn Macə bu hədisi (*"İman"* hədisini) ondan nəql etmişdir. Bu hədis bizə çox yüksək səviyyəli sənədlə gəlib çatmışdır"[2].

***Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei (h.q. 833)***

O, "*İman*" hədisi və onun əzəməti haqqında dəyərli sözlər söyləmiş, Əba Səlt haqqında demişdir:

"Əba Səlt İmam Rzanın (ə) xidmətçisi olmuşdur. Bəziləri (hədis nəql etməyə) səlahiyyəti olduğu halda onun zəif (rəvayətçi) olduğunu bildirmişlər"[3].

***İbn Həcər Əsqəlani (h.q. 852)***

"Əba Səlt Nişaburda məskunlaşdı. Hədis öyrənmək üçün müxtəlif şəhərlərə yollandı. O, İmam Rzanın (ə) xidmətkarı idi"[4].

O, başqa bir yerdə Əba Səltin şiəliyə meyilli olduğunu təkid edərək tam insafla onun doğru danışan

---

[1] "Şəvahid ət-tənzil li qəvaid ət-təfsil", c. 1, səh. 105.
[2] "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 1, səh. 460-465.
[3] "Əsna əl-mətalib fi mənaqibi-seyyidina Əli ibn Abu Talib (ə)", səh. 122-126.
[4] "Təhzib ət-təhzib", c. 6, səh. 286-287.

olduğunu bildirir. Əba Səltin yalançı olduğunu bildirənləri ifratçı və təssübkeş adlandırır: "Əba Səlt doğru danışan insan idi. "Münkər" hədislər nəql etmişdi. O, şiə idi. Amma Üqəyli ifrata edərək onu yalançı adlandırmışdır"[1].

Qeyd etmək lazımdır ki, "munkər" hədislər nəql etməsi rəvayətçinin zəif olduğunu göstərmir[2].

***İbn Təqri Bərdi Hənəfi (h.q. 874)***

O, Əba Səlti gözəl sözlərlə yad edir və yazır:

"Əba Səlt çox səfərə çıxan hafiz idi. Elm öyrənmək üçün müxtəlif bölgələrə səfər etmişdi. Bir çoxlarından hədis dinləmiş və çoxları ondan hədis nəql etmişlər. O, bir az şiəmeyilli idi"[3].

"Hafiz" termini rəvayətçiləri mədh edən ifadədir. Əhli-sünnəyə görə rəvayətçinin əzəmət və məqamını göstərir. Bəzilərinə görə hafiz yüz min hədisi sənəd və mətnilə birgə əzbərləyən və onları mükəmməl bilən hədisşünasdır. Bəziləri isə üç yüz və ya yeddi yüz hədis bilənin hafiz olduğunu bildirmişlər[4].

Hər halda Əba Səltin hafiz adlanması onun sənəd və məzmun baxımından hədis toplayıb yığmaqda böyük məharətə malik olmasının göstəricisidir.

***Əbul-Həsən Kinani Şafei (h.q. 963)***

O, "*İman*" hədisinin səhih olduğunu sübut etmək üçün iki dəlil göstərir. Birincisi, Əba Səltin rəvayətiçi

---

[1] "Təqrib ət-təhzib", c. 6, səh. 286-287.
[2] "Ər-Rəfu və ət-təkmil fi cərhi və ət-tədil", səh. 98.
[3] "Ən-Nucum əz-zahirə fi muluki Misr və əl-Qahirə", c. 2, səh. 344.
[4] "Tədrib ər-ravi fi şərhi təqrib ən-navi", səh. 49-52.

kimliyi və Yəhya ibn Məinin onun etibarlı olduğunu təsdiqləməsi. İkincisi, Aişə və səhabə Əbu Qətadənin "*İman*" hədisinin məzmununu təsdiqləyən sözləri. Beləcə, Əba Səlt haqqında söylənilən "münkər" rəvayətlər nəql etmişdir ittihamı da aradan qalxmış olur[1].

***Əbul-Həsən Sindi Hənəfi (h.q. 1138)***

O, "*İman*" hədisini təsdiq edərək əhli-sünnə alimlərinin fikirlərini xatırladır və beləcə Əba Səlti müdafiə edir. Sindi Siyuti Şafeidən nəql edərək yazır:

"Həqiqət budur ki, ("*İman*" hədisi) saxta və qondarma deyil"[2].

***İcluni Şafei (h.q. 1162)***

O, da "*İman*" hədisinin Əba Səlt tərəfindən quraşdırıldığını söyləyənlərin bu fikrini rədd edərək onu təsdiqləyir və yazır:

"Bu sənədin incə və zərif tərəflərindən biri sənəd silsiləsi boyunca övladların atalardan nəql etməsidir"[3].

***İkinci baxış***

Bu baxışda Əba Səlt bir rəvayətçi kimi qəbul olunmuş hesab olunur, lakin nəql etdiyi hədislərə tənqidcəsinə yanaşılır.

---

[1] "Tənzih əş-şəriə əl-mərfuə ən əl-əxbar əş-şəniə əl-məvzuə", c. 1, səh. 152.

[2] "Şərhu Sunəni-İbn Macə, c. 1, səh. 52.

[3] "Kəşf əl-xifa və muzil əl-ilbas əmma iştəhərə min əl-əhadis əla əlsinəti ən-nas", c. 1, səh. 22.

***Zəkəriyya ibn Yəhya Saci Bəsri Şafei (h.q. 307)***

O, Əba Səltin hədisi rəvayət etməyində sədaqətinə dair bir söz demir. Yalnız onun qəribə hədislər nəql etdiyini irad tutur və yazır:

"O (Əba Səlt), qəribə hədislər nəql edir. Onlara (əhli-sünnəyə) görə, (belə hədislər nəql etdiyi üçün) zəif rəvayətçidir"[1].

***Nəqqaş Hənbəli (h.q. 414)***

Nəqqaş da Əba Səltin sədaqəti və rəvayətçi kimliyi haqqında bir söz demir, yalnız onun nəql etdiyi rəvayətlər haqqında fikir bildirir:

"O, qəribə hədislər nəql etmişdir"[2].

***Əbu Nuəym İsfahani (h.q. 430)***

O, da Əba Səltin sədaqət və etibarlığı haqqında fikir bildirmədən onun nəql etdiyi hədisləri tənqid edir:

"O, qəribə hədislər nəql edir"[3].

***İkinci baxış haqqında bir neçə söz***

İkinci baxış Əba Səltin sədaqət və etibarına kölgə salmır. Çünki əhli-sünnəyə görə, "münkər", qəribə, təccüb doğuran ifadələri ilə dəyərləndirilən fəzilətlərlə bağlı hədislər rəvayətçinin zəif olduğunu göstərmir.

---

[1] "Tarixi-Bağdad", c. 11, səh. 51; "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 466.

[2] "Əlam ən-nubəla", c. 11, səh. 446; "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 2, səh. 616; "Təhzibu təhzib əl-kəmal", c. 6, səh. 91; "Təhzib ət-təhzib", c. 6, səh. 286.

[3] "Kitab əz-zuəfa", səh. 108.

Rəvayətçinin zəif olduğunu isbat etmək üçün bundan başqa digər dəlillər də ortaya qoymaq lazımdır[1].

***Üçüncü baxış***

Üçüncü baxışda Əba Səltin şəxsiyyətini, rəvayətçi kimiliyini və eləcə də nəql etdiyi rəvayətləri əhli-sünnənin bəzi təssübkeş alimləri tərəfindən tənqid atəşinə tutulur və əhli-beyt sevgisinə və əhli-sünnə alimləri vasitəsi ilə (onların) fəzilətləri haqqında hədislər nəql etdiyinə görə ən pis ittihamlara, hörmətsizliklərə, təhqirlərə məruz qalmışdır.

***İbrahim ibn Yaqub Cuzcani (h.q. 259)***

O, hədisçilərin imamı Yəhya ibn Məinin və digər rical alimlərinin fikirlərinə etinasızlıq edərək böyük təəssüb nümayiş etdirərək görkəmli əhli-sünnə alimlərinin etimad göstərdiyi Əba Səltə ədəbsizcəsinə təhqirlər yağdırır:

"Əba Səlt Hirəvi haqq yoldan çıxmış, ədalətdən yayınmışdır. Hədis qabaqcıllarından mənə hədis nəql edən birindən eşitdim ki, O, Əba Səlt haqqında demişdir: "O, yalanın özü, Dəccalın ulağının peyinindəndir. Əvvəldən çirkinliklərə bulaşmışdır"[2].

***Əbu Hatəm Razi Şafei (h.q. 277)***

"Mənə görə o, doğru danışan deyil, zəif rəvayətçidir"[3].

---

[1] "Ər-rəfu və ət-təkmil fi əl-cərhi və ət-tədil", səh. 98.
[2] "Əhval ər-rical", səh. 205-206.
[3] "Əl-cərhi və ət-tədil", c. 6, səh. 48.

***Əbu Zurə Dəməşqi Hənbəli (h.q. 281)***

Əbu Hatəm Razi Şafei yazır:

Əbu Zurə Əba Səltin hədislərini nəql etməməyi əmr etmiş və demişdir:

"Mən ondan hədis nəql etmirəm və həmçinin hədislərini bəyənmirəm"[1].

***Nəsai Şafei (h.q. 303)***

Ona isnad edirlər ki, Əba Səlti zəif (rəvayətçi) hesab etmiş və demişdir:

"O, (Əba Səlt) etimadlı deyil"[2].

***Uqəyli Məkki (h.q. 322)***

O, Əba Səlt haqqında təssübkeşcəsinə deyir:

"Əba Səlt rafizi və səviyyəsizdir (xəbisdir). Etiqadı doğru və sağlam deyil"[3].

Başqa yerdə yazır: "Əba Səlt yalançıdır"[4].

***İbn Hibban Busti Şafei (h.q. 354)***

O, iki yerdə Əba Səltin rəvayətçi kimi zəif olduğunu göstərməyə çalışır və yazır:

"İmam Rzanın (ə) hədislərini şiələrdən, xüsusilə Əba Səltdən başqası nəql etdikdə mötəbər hesab etmək vacibdir. Çünki İmam Rzadan (ə) nəql olunan

---

1 Yenə orada.

2 “Kitab əl-məcruhin”, c. 2, səh. 151.

3 Bunu “Əz-Zuəfa və əl-mətrukin” kitabında tapa bilmədik. Lakin başqaları ona isnad etmişlər. Bax: “Tarixi-Bağdad”, c. 11, səh. 51; “Təhzib əl-kəmal fi əsmai ər-rical”, c. 11, səh. 466; "Siyəru əlam ən-nubəla", c. 11, səh. 444; “Mizan əl-etidal fi nəqdi ər-rical”, c. 2, səh. 416.

4 "Təhzib ət-təhzib", c. 6, səh. 286; "Təqrib ət-təhzib", c. 1, səh. 506.

və yanlışlığı aydın olan hədislər Əba Səltdən və İmamın (ə) övladlarından, şiələrdən qaynaqlanır"[1].

"Əba Səlt Həmmad ibn Ziyad və iraqlılardan İmam Əli (ə) və Əhli-beyt (ə) haqqında qəribə hədislər nəql edir. Əgər bu hədisləri yalnız o nəql edirsə, ona istinad etmək olmaz"[2].

***İbn Ədiyy Curcani Şafei (h.q. 345)***

O, da Əba Səltin zəif rəvayətçi olduğunu bildirərək nəql etdiyi hədisləri, xüsusi ilə "*İman*" hədisini zəif adlandırır və onu hədis qondarmaqda ittiham edir:

"Əbdus-Səlam (Əba Səlt) Əbd ər-Rəzzaqdan Əli, Fatimə, Həsən və Hüseyn (ə) fəzilətləri haqqında qəribə və təccüb doğuran hədislər nəql edir. O, bu hədislərin hər birində (onları özündən qondarmaqda) ittiham olunur"[3].

***Darqutni Bağdadi Şafei (h.q. 385)***

Ona isnad edildiyinə görə qəti şəkildə Əba Səltin zəif rəvayətçi olduğunu bildirir və haqqında təhqiramiz sözlər işlədir:

"O, rafizi və səviyyəsiz adam olmuşdur".

Başqa yerdə isə Əba Səlti özündən hədis qondarmaqda ittiham edərək deyir:

"Əba Səlt Cəfər ibn Məhəmmədən, o da ata-babalarından "*İman*" hədisini nəql etmişdir. O, bu

---

[1] "Kitab əs-siqat", c. 8, səh. 256.
[2] "Kitab əl-məcruhin", c. 2, səh. 151.
[3] "Əl-Kamil fi zuəfa ər-rical", c. 5, səh. 331-332.

hədisi özündən quraşdırmaqda ittiham olunur"[1].

***Məhəmməd ibn Tahir Məqdəsi Zahiri (h.q. 507)***

O, Əba Səlti yalançı hesab etmişdir[2].

***Əbu Səid Əbdul-Kərim Səmani Şafei (h.q. 562)***

O, İbn Hibban Bustininin sözlərini təkrar edərək Əba Səltin rəvayətlərini tənqid edir.

"Əba Səlt Həmmad ibn Ziyad və iraqlılardan İmam Əli (ə) və Əhli-beyt (ə) haqqında qəribə hədislər nəql edir. Əgər bu hədisləri yalnız o nəql edirsə, ona istinad etmək olmaz"[3].

***Əbul-Fərəc ibn Cəvzi Hənbəli (h.q. 597)***

O, Əba Səltin adını zəif və tərk olunmuş rəvayətçilər sırasında çəkmişdir[4].

***Zəhəbi Şafei (h.q. 478)***

O, öz kitabının müxtəlif hissələrində zəif və s. ibarətlərlə Əba Səltin rəvayətçi kimliyini və rəvayətlərini sual altına alır:

"Əba Səlt böyük elm adamı, abid və şiə şeyxi idi. Böyük fəzilət sahibi idi. Amma kaş etimadlı olaydı"[5].

"O, səlahiyyətli şəxs olmasına baxmayaraq, təssübkeş şiə idi"[6].

---

[1] "Tarixi-Bağdad", c. 11, səh. 51; "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 2, səh. 616; "Təhzib əl-kəmal fi əsmai ər-rical", c. 11, səh. 464; "Təhzib ət-təhzib", c. 6, səh. 286.
[2] "İkmalu təhzib əl-kəmal fi əsmai ər-rical", c. 8, səh. 274.
[3] "Əl-Ənsab", c. 5, səh. 637.
[4] "Kitab əz-zuəfa və əl-mətrukin", c. 2, səh. 446-448.
[5] "Siyəru əlam ən-nubəla", c. 11, səh. 390.
[6] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 2, səh. 616.

"Bir çoxları onu yalançılıqda ittiham etmişlər. Əbu Zurə onu etimadlı hesab etməmişdir. İbn Ədiy onun hədis qondarmaqda ittiham olunduğunu bildirir. Başqaları isə onu rafizi hesab edirlər"[1].

"Əba Səlt Əbdus-Salam ibn Saleh Hirəvi (hədis nəqlində) dəyərsizdir"[2].

"Əba Səlt abid və şiədir. (Lakin) onun hədisləri tərk olunmuşdur (ona əməl olunmur)"[3].

"Əba Səlt Əli ibn Musa ər-Rzanın (ə) xidmətçisidir. Dəyərsiz və şiə olmuşdur. Səlahiyyətli olmasına baxmayaraq, (hədis qondarmaqda) ittiham olunmuşdur"[4].

Başqa yerdə Əba Səlt etimadlı və inanılandır deyən Hakim Nişapurinin fikirlərini tənqid edərək yazır:

"Yox, Allaha and olsun, Əba Səlt nə etimadlı, nə də inanılan (əmanətdardır)"[5].

***İbn Kəsir Dəməşqi Şafei (h.q. 774)***

O, Əba Səlti zəif rəvayətçilər sırasına aid edərək yazır:

"Əba Səlt Hirəvi zəif rəvayətçilərdən biridir"[6].

Bu səbəbdən də bəzi ifratçı "Sunəni-İbn Macə" şərhçiləri Əba Səltdən nəql olunan "*İman*" hədisini

---

[1] "Divan əz-zuəfa və əl-mətrukin", c. 2, səh. 112.
[2] "Əl-Muqtəna fi sərdi əl-kuna", c. 1, səh. 382; "əl-Mucərrədu fi əsmai Sunəni-İbn Macə", səh. 213.
[3] "Əl-Muğni fi əz-zuəfa", c. 1, səh. 624.
[4] "Əl-Kaşifu fi mərifəti mən ləhu rəvayətun fi əl-kutub əs-sittə", c. 1, səh. 652-653.
[5] "Əl-Mustədrəku əla əs-səhihəyn", c. 3, səh. 137.
[6] "Əl-Bidayə və ən-nihayə", c. 10, səh. 329.

qəti rədd etmiş və onu Əba Səltin qondardığı saxta hədis hesab etmişlər.

***Buseyri Şafei (h.q. 840)***

O, yazır:

"Bu hədisin sənədi zəifdir. Çünki bütün alimlər Əba Səltin zəif rəvayətçi olduğu haqqında eyni fikirdədirlər"[1].

Əhli-sünnə alimlərinin Əba Səlt haqqında söylədiklərinə nəzər saldıqda onun zəif (rəvayətçi) olması iddiasının əsassız olduğu aydın olur.

Bəşşar Əvvad[2], Səfa Səfəvvi, Əhməd Ədəvi[3] və Nasirəd-Din Əlbani Hənbəli[4] hər biri açıqca "*İman*" hədisinin saxta və qondarma olduğunu bildirmiş, Əba Səlti hədis qondarmaqda ittiham etmişlər.

***Üçüncü baxış haqqında bir neçə söz***

Birincisi, birinci və ikinci baxışlar, Yəhya ibn Məin kimi keçmiş hədis alimlərinin, əhli-sünnə qabaqcılarının Əba Səlt haqqında söylədikləri üçüncü baxışın əsassız olduğuna ən böyük sübutdur.

İkncisi, Əba Səltin Nəsai Şafei və Darqutni Şafei tərəfindən zəif rəvayətçi hesab olunması məlum deyil. Çünki hər iki alimin qələmə aldığı "Zəif rəvayətçilər" kitabında Əbd əs-Salam ibn Saleh Əba Səlt Hərəvi adı mövcüd deyil.

---

[1] "Misbah əz-zucacə fi zəvaidi-Sunəni-İbn Macə", c. 1, səh. 121-122.
[2] "Sunəni İbn Macə", Bəşşar Əvvadın tədqiqi ilə, c. 1, səh. 89-90.
[3] "İhda əd-dibacə bi şərhi Sunəni-İbn Macə", c. 1, səh. 68-69.
[4] "Zəifu Sunəni-İbn Macə", səh. 6-7; "Zəifu əl-came əs-səğir və ziyadətuhu", səh. 339.

Üçüncüsü, Nəsai Şafeinin Əba Səlti zəif rəvayətçi adlandırması düzgün olsa belə demək lazımdır ki, Nəsa Şafei, Əbu Hatəm Razi Şafei, İbn Hibban Şafei və Yəhya ibn Məinin rəvayətçiləri zəif adlandırmasının rical elmi baxımından heç bir dəyəri yoxdur. Çünki əhli-sünnə alimlərinin açıq etiraflarına görə adları çəkilən alimlər rəvayətçiləri qiymətləndirərkən ifratı varmış və ən kiçik dəlillə onları etibardan salmışlar.

"Bu qrup (alimlər) rəvayətçiləri qiymətləndirərkən ifratı varmış və çox xırda səbəblərlə rəvayətçiləri etibardan salmışlar. Ağıllı adam odur ki, bu qurup alimlərin zəif hesab etdiyi rəvayətçilər haqqında tədqiqat aparsın və düşünsün (onların sözünü araşdırmadan qəbul etməsin)[1]".

Yəhya ibn Məin bu qurup alimlərə aid olduğu halda Əba Səltin etibarlı olduğunu bildirmişdir. Bu rical alimlərinə görə böyük elmi dəyərə malikdir.

Çünki hər xırda səbəbə görə rəvayətçini zəif hesab edən biri onun etibarlı olduğunu bildirmişdir. Bu, rəvayətçinin, xüsusi ilə Əba Səltin əsla zəif rəvayətçi olmadığının göstəricisidir.

Dördüncüsü, bu baxışın ən çox nöqsanı və Əba Səltin zəif rəvayətçi hesab olunmasının başlıca dəlili onun hansı məzhəbə mənsub olması və nəql etdiyi rəvayətlərdir.

Onu yalnız Əhli-beytə (ə) bəslədiyi sevgi, Əbdur-Rəzzaq Sənani kimi əhli-sünnə alimlərindən onların fəziləti ilə bağlı hədislər nəql etdiyinə görə özlərinə layiq söyüş və təhqiramiz ifadələrlə yad etmişlər.

---

[1] "Ər-Rəfu və ət-təkmil fi əl-cərhi və ət-tədil", səh. 117-122.

Tarixi baxımdan bu təhqir və əsassız ittihamların mənşəyi Cuzcanidir. O, kortəbii təssübü ilə nəinki Əba Səltə, fəzilət nəql edən istənilən rəvayətçiyə, hətta əhli-sünnə belə olsa, təhqiramiz sözlər söyləmiş, zəif rəvayətçi adlandırmışdır. Təssüflər olsun ki, bəziləri düşünmədən, araşdırmadan Cuzcaninin sözlərini digər ibarətlərlə təkrar etmişlər.

Bütün bunların mənbəyi olan Cuzcani ilə bağlı demək lazımdır ki, onun əhli-sünnə alimləri arasında yeri yoxdur. Onlar onu "nasibi" hesab edir, onun və tərəfdarlarının görüşlərinə heç bir əhəmiyyət, dəyər vermirlər.

***Cuzcani Əba Səltə qarşı ittihamların mənşəyi***

Əba Səltin uca şəxsiyyətinə qarşı ittihamların mənşəyi İbrahim ibn Yaqub Cuzcani (h.q. 259) adlı nasibidir. O, əsassız olaraq Əba Səltin zəif rəvayətçi olduğunu bildirmiş, Yəhya ibn Məin kimi əhli-sünnə alimlərinin də nəql etdiyi İmam Əli (ə) və Əhli-beytin (ə) fəziləti ilə bağlı hədisləri nəql etdiyinə görə ədəbsizcəsinə əhli-sünnə böyük alimlərinin etimad göstərdiyi şəxsiyyətə təhqirlər söyləyir:

"Əba Səlt Hirəvi haqq yoldan çıxmış, adillikdən yayınmışdır. Hədis qabaqcıllarından mənə hədis nəql edən birindən eşitdim ki, O, Əba Səlt haqqında demişdir: "O, yalanın özü, Dəccalın ulağının peyinindəndir. Əvvəldən çirkinliklərə bulaşmışdır"[1].

Bəziləri də kortəbii olaraq nasibi Cuzcaninin sözlərini əsas tutmuş və Əba Səltin zəif rəvayətçi olduğunu bildirmişlər.

---

[1] "Əhval ər-rical", səh. 205-206.

***Əhli-sünnənin böyük alimləri Cuzcaninin Əhli-beyt düşməni olması haqqında etirafları***

Nasibi Cuzcaninin bu və ya digər rəvayətçini zəif adlandırmasının heç bir elmi etibarı yoxdur və Əba Səltin şəxsiyyətinə, rəvayətlərinə xələl gətirmir.

Çünki birincisi, Cuzcani İbn Ədiy Şafei, Darqutni Şafei, Zəhəbi Şafei, İbn Həcər Əsqəlani, muasirlərdən Qimari Şafei və Həsən ibn Əli Səqqaf Şafeinin etirafına görə Əliyə (ə) kin bəsləmişdir. Təbii ki, belə bir nasibi şəxs onun fəzilətlərini rədd edəcək, bu fəzilətləri nəql edən rəvayətçiləri isə zəif rəvayətçi hesab edəcəkdir.

İbn Ədiy Curcani Şafei yazır:

"O, Dəməşqdə yaşayırdı. Minbərə çıxar, xütbə edirdi. Dəməşqlilərin onun Əliyə (ə) olan düşmənçiliklərinə çox meyilli idilər"[1].

Darqutni Şafei yazır:

"O, Əlidən (ə) yayınmışdı"[2].

İbn Hibban Busti Şafei yazır:

"İbrahim ibn Yaqub Cuzcani hərizi məzhəbinə mənsub olunmuşdur"[3].

İbn Həcər Əsqəlani Şafei İbn Hibban Şafeinin sözünü izah edərək yazır:

"Hərizi Həriz ibn Osmana aiddir. O, Əhli-beytə (ə) qarşı düşmən mövqeyi ilə məşhurdur. İbn Ədiy bunu təsdiq etmişdir"[4].

---

[1] "Əl-Kamil fi əz-zuəfai ər-rical", c. 1, səh. 310.
[2] "Təhzib ət-təhzib", c. 1, səh. 159; "Mucəm əl-buldan", c. 2, 183.
[3] "Kitab əs-siqat", c. 8, səh. 81.
[4] "Təhzib ət-təhzib", c. 1, səh. 159.

Zəhəbi Şafei İbn Ədiyin Cuzcani haqqında söylədiklərini qeyd etdikdən sonra onu təsdiqləyərək yazır:

"Dəməşqlilər uzun zaman əhli-beytə (ə) qarşı düşmən kəsilmişlər"[1].

İbn Həcər Əsqəlani Şafei də İbn Hibban Şafei, İbn Ədiy Şafei və Darqutni Şafeinin Cuzcaninin nasibi olması ilə bağlı fikirlərini qeyd edərək onun kitabının bu iddiaya şahid olduğunu bildirmişdir. O, yazır:

"Onun rəvayətçilər haqqındakı kitabı etiqadını üzə çıxarır".[2]

O, bu kitabda Əlinin (ə) səhabələrindən hesab olan, onun fəzilətlərini nəql edən hər kəsi qəti olaraq zəif rəvayətçi adlandırmış, bəzən haqlarında təhqiramiz ifadələr işlətmişdir. Buna görə də İbn Həcər Əsqəlani Şafei onun rəvayətçilərin zəif olması ilə bağlı fikirlərini əsla qəbul etmir və elmi dəyər vermir[3].

İbn Həcər başqa yerdə Cuzcanini kəskin tənqid edərək yazır:

"Cuzcani nasibi olmuş və Əlinin (ə) yolundan yayınmışdır. O, Osman tərəfdarı olmayanlarla düşmən olmuşdur. Düzgün etiqad onların hər birinə dostluq münasibəti bəsləməkdir. Bir bidətçinin bidətlə bağlı sözünü qəbul etmək düzgün olmaz"[4].

---

[1] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 1, səh. 76.
[2] "Təhzib ət-təhzib", c. 1, səh. 159.
[3] Yenə orada, c. 1, səh. 81.
[4] "Hədyu əs-sari", səh. 410. "Fəth əl-bari" kitabının müqəddiməsi kimi tanınmışdır.

Əbdul-Əziz Qimari Şafei Cuzcanini aydın şəkildə vəsf edir:

"Əbu İshaq Cuzcani nasibi və məşhurdur. O, şiəliyə meyilli olduqları bildirilən hədis qabaqcıllarına namərdcəsinə, ədəbsizcəsinə, olduqca pis şəkildə hücumlar edir. Belə ki, bütün kufəlilər haqqında eyni metoddan istifadə etmiş, təhqiramiz ifadələr işlətmişdir. Onların rəvayətlərini rədd etmişdir. Bu ifratçı metod Cuzcaniya xasdır və alimlər arasında heç bir etibarı yoxdur. Onlar bildirirlər ki, Cuzcaninin kufəlilər və digər şiəmeyilli rəvayətçilər haqqında söylədiklərinə əsaslanmamaq məsləhətdir"[1].

Həsən ibn Əli Səqqaf Şafei yazır:

"Cuzcani səviyyəsiz sələflərdəndir. O, doğru yoldan yayınanlardandır. İnsanları əsassız olaraq doğru yoldan yayındırır. Allah onun üzünü qaraltsın. O, seçilmiş səhabələrə nalayiq sözlər yağdırır, cinayətkarlara isə maraq göstərir"[2].

***Yekun***

Birincisi, əhli-sünnənin böyük alimləri sözlərinə əsasən Cuzcaninin rəvayətçiyə verdiyi pis və ya yaxşı qiymət, xüsusi ilə Əli (ə) və onun fəzilətlərini nəql edən rəvayətçilər haqqında söylədiklərinin elmi dəyəri yoxdur.

İkincisi, Əba Səltin Əli (ə) və Əhli-beytin (ə) fəzilətləri ilə bağlı nəql etdiyi hədislər başda Yəhya ibn Məin olmaqla əhli-sünnənin böyük alimləri tərəfindən təsdiq olunmuş, səhih olduğunu göstərmək üçün digər vasitələrlə də nəql edilmişdir.

---

[1] "Bəyanu nəksi ən-nakis", səh. 54.

[2] "Əl-Ətb əl-cəmil əla əhli əl-cərhi və ət-tədil", səh. 122.

Üçüncüsü, əgər bu və ya digər rəvayətçini yalnız Əlinin (ə) və Əhli-beytin fəzilətləri ilə bağlı hədislər nəql etdiyinə görə zəif hesab edib rəvayətlərini rədd etsək, o zaman bir çox səhabə və davamçıların rəvayətlərini rədd etməli olacağıq. Zəhəbi Şafei bu haqda yazır:

"Əgər şiələrin və Əlini (ə) sevənlərin hədislərini rədd etsək, Peyğəmbərin (s) hədislərinin böyük bir hissəsi rədd edilməlidir. Bu, böyük itkidir"[1].

Dördüncüsü, haqqında söhbət açdığımız hədisi ("*İman*" hədisi) Əba Sәlt İmam Rzadan (ə), o da əcdadlarından, Əli (ə) və Peyğəmbərdən (s) rivayət etmişdir. Öncə də qeyd etdiyimiz kimi bu hədisin doğru odluğunu göstərən digər vasitələr də mövcüddur.

Beşincisi, əhli-sünnənin böyük alimlərinin Əba Səlti və məlum rəvayəti təsdiq edən sözlərini, bundan da mühüm "silsilətuz-zəhəb" hədisinin şəfavericiliyini bildirmələri, hətta bu sənədin şəfavericiliyini təcrübədən keçirmələri müxalifləri fikir bildirməsinə, rəvayətin zəif olması kimi gümanlara yer qoymur.

***Əba Səltin məzhəbi***

Əba Səltin məzhəbi haqqında demək lazımdır ki, o, əksər imamiyyə alimlərinin fikrincə imamiyyə şiəsi olmuşdur[2]. Lakin Şeyx Tusi[3], İbn Davud Hilli[4] və

---

[1] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 1, səh. 76.
[2] "Rical ən-Nəccaşi", səh. 245; "Tənqih əl-məqal fi elmi ər-rical", c. 2, 153; Məcməu ricali əl-hədis və təfsilu təbəqat ər-ruvat", c. 10, səh. 16-17.
[3] "Rical ət-Tusi", səh. 380 və 396.
[4] "Kitab ər-rical", səh. 474.

Əllamə Hilli [1] isə onun əhli-sünnə olduğunu bildirmişlər. Əksər əhli-sünnə alimlərinə görə Əba Səlt Hirəvi şiəmeyilli əhli-sünnə olmuşdur. Burada belə bir sual yaranır. Əba Səltin əhli-sünnə alimləri tərəfindən şiə, ifratçı şiə, xəbis rafizi və s. kimi ifadələrlə yad edilməsi onun şiə olduğunu göstərmirmi?

Bu suala cavab olaraq qeyd etmək lazımdır ki, xeyir, əhli-sünnə alimlərinin zikr olunan ifadələrdən məqsədi tamamilə fərqlidir. Bu fərqləri diqqətinizə çatdırırıq:

Əhli-sünnəyə görə şiə, ifratçı şiə və xəbis rafizi ifadələrinin mənası əhli-sünnənin işlətdiyi şiə ifadəsi imamiyyə alimlərinin işlətdiyi şiə termini ilə tam fərqlidir. İmamiyyə şiələrinə görə, şiə Əlinin (ə) və on bir övladının fasiləsiz xəlifə və imam olduğuna etiqad bəsləyəndir. Halbuki, əhli-sünnə alimləri şiə sözünü və eyni kökdən törəyən digər ifadələri tamamilə fərqli mənalarda işlədirlər. Hansı ki, birinci mənaya heç bir aidiyyəti yoxdur. Buna görə də Əba Səlt haqqında şiə, ifratçı şiə və ya xəbis rafizi ifadələrini işlədənlərin məqsədi onun imamiyyə olması deyil.

Şiə termini haqqında iki versiya mövcuddur: Bəzilərinə görə şiə Əlini (ə) sevən, onun Osmandan üstün olduğunu düşünən, bütün döyüşlərdə haqq olduğuna, düşmən cəbhədəkilərin yanlış yol seçdiklərinə, lakin Əbu Bəkr və Ömərin ondan öndə olduqlarına etiqad bəsləyəndir[2].

---

[1] "Xulasətu əqval ər-rical", səh. 209.

[2] "Təhzib ət-təhzib", c. 1, səh. 81; "Hədyu əs-sari", səh. 483. "Fəth əl-bari" kitabının müqəddiməsi kimi tanınmışdır.

Digərlərinə görə isə Şiə İmam Əlini (ə) bütün səhabələrdən, hətta Əbu Bəkr və Ömərdən də üstün hesab edən, onu xilafətə ən layiqli olmasına deyil, ən fəzilətli olmasına inanandır[1].

İfratçı şiə termini haqqında da iki versiya mövcuddur: Bəzilərinin fikrincə ifratçı şiədə məqsəd İmam Əlinin (ə) bütün fəzilətlərdə səhabələrdən, hətta Əbu Bəkr və Ömərdən belə öndə olmasına etiqad bəsləyəndir[2].

Digərləri isə bu termini Əlini (ə) sevən, Əbu Bəkr və Ömərdən önə keçirməsələr də Osmandan öndə görənlərə, Osman, Müaviyə, Təlhə, Zübeyr və Əli (ə) ilə döyüşən digər şəxslərə lənətlər yağdıranlara aid edirlər[3].

Xəbis rafizi termini isə əhli-sünnə alimlərinin yekdil rəyinə görə Əlini (ə) sevməkdən, onu bütün səhabələrdən, hətta Əbu Bəkr və Ömərdən də üstün hesab etməkdən əlavə Peyğəmbərdən (s) bilavasitə sonra xəlifə olmasına, Əbu Bəkrə, Ömərə və xilafəti qəsb edənlərə lənət oxuyanlara aid edilir[4].

Deməkк, şiə, yaxud ifratçı şiə (ğali) ifadəsi əslində əhli-sünnə olub, özünəməxsus inancları olanlara aiddir. Rafizi sözü isə Əlini (ə) Peyğəmbərdən (s) sonra fasilətsiz xəlifə hesab edənlərə aid olduğu üçün rafizi adlandırılan şəxsin imamiyyə olduğu qənaətinə

---

[1] "Təhzib ət-təhzib", c. 1, səh. 81.

[2] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 1, səh. 5-6; "Hədyu əs-sari", səh. 483. "Fəth əl-bari" kitabının müqəddiməsi kimi tanınmışdır.

[3] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 1, səh. 6.

[4] "Mizan əl-etidal fi nəqdi ər-rical", c. 1, səh. 6; "Təhzib ət-təhzib", c. 1, səh. 81.

gəlmək olmaz. Çünki rafizi Zeydiyyə, Kisaniyyə, Vaqifiyyə və digər məzhəblərə də aiddir.

Qeyd olunan mənalara, əhli-sünnə tarixi qaynaqlarına, bu qaynaqlarda Əba Səlt haqqında yazılanlara əsasən qətiyyətlə demək olar ki, Əba Səlt rafizi yox, əhli-sünnə olmuşdur. Əhli-sünnə tarixi qaynaqlarda verilən məlumatlara görə, son olaraq onun ifratçı şiəliyə meyilli olmasını söyləmək olar. Onun əhli-sünnə olub imamiyyəyə maraq göstərdiyini göstərən tarixi məlumatlar aşağıdakılardır:

1. Əba Səlt Hirəvi Əhli-beytin (ə), xüsusilə İmam Əlinin (ə) fəziləti haqqında çox hədis nəql edirdi.

Misal üçün, "Elmin qapısı"[1], "Silsilətuz-zəhəb"[2] cə s. hədisləri.

2. Xətib Bağdadi Şafei Mərvəzinin "Mərv tarixi" kitabında Əba Səlt haqqında belə yazıldığını qeyd edir:

"Əba Səlt tanınmış şiə mütəkəllimidir. (ilahiyyatçısıdır)"[3].

3. O, Mərvəzi Şafeidən Əba Səltin xəlifələr haqqında fikirlərini nəql edərək yazır:

"Əba Səltin Əbu Bəkr və Öməri önə keçirdiyini, Əli (ə) və Osmana mərhəmət göstərdiyini və Peyğəmbər (s) səhabələri haqqında yaxşı danışdığını gördüm. Onu belə dediyini eşitdim: Bu əqidə mənim məzhəbimdir"[4].

---

[1] "Tarixi-Bağdad", c. 11, səh. 48-51.

[2] Bu hədisin sənədi haqqında ikinci və üçüncü fəsillərdə ətraflı söhbət açdıq.

[3] "Tarixi-Bağdad", c. 11, səh. 48-51.

[4] "Tarixi-Bağdad", c. 11, səh. 47-48.

4. Mərvəzi Şafei Əba Səltin yeganə zəif cəhətini Əbu Musa Əşəri və Müaviyə kimi səhabələrin eyibləri, nöqsanları ilə bağlı hədislər nəql etməsində görür[1].

5. Digər bir nəqldə Darqutni Şafei Əba Səltin bəni-Üməyyə haqqında belə dediyini iddia edir:

"Bir Ələvinin iti bütün bəni-Üməyyədən yaxşıdır. "Osman da onların arasındadır?" - soruşduqda dedi: (Bəli) onların arasında Osman (da) var"[2].

Bu, Mərvəzi Şafeinin verdiyi məlumatla ziddiyyət təşkil edir. Buna görə də Zəhəbi Şafei Darqutni Şafeinin sözünü qəbul etmir və onun sənədinə irad tutur[3]. Mərvəzinin verdiyi məlumatı isə qəbul edir.

***Yekun***

Bütün bunlardan bəlli olur ki, Əba Səlt əhli-sünnə olmuş, Əbu Bəkr və Ömərin xəlifə olmasına inanmışdır. Lakin buna baxmayaraq, İmam Əliyə (ə) və onun fəzilətlərini nəql etməyə çox meyilli olmuşdur. Əbu Musa Əşəri, Müaviyə və bəni-Üməyyə haqqında da çox pis mövqeydə olmuş və bu mövqeyi onun ifratçı şiə adlandırılmasına yol açmışdır. Buna görə də Uqəyli və Darqutninin Əba Səlti rafizi adlandırması əsassızdır və əhli-sünnənin şiə termininə verdiyi təriflə üst-üstə düşmür.

---

[1] Yenə orada.
[2] "Tarixi-Bağdad", c. 11, səh. 51.
[3] "Təhzib ət-təhzib", c. 6, səh. 92.

# DÖRDÜNCÜ FƏSİL

## *DİGƏR HƏDİSLƏR*

***Digər silsilətuz-zəhəb hədisləri***

"Silsilətuz-zəhəb" adlanan "*Hisn*" və "*İman*" hədislərini nəzərdən keçirdik. Bu fəsildə əhli-sünnə qaynaqlarında öz əksini tapmış sənədi "silsilətuz-zəhəb" olan, İmam Rzanın (ə) pak əcdadlarından nəql etdiyi digər hədisləri də diqqətinizə çatdıracağıq:

1. İbn Nəccar Şafei (h.q. 643) özünəməxsus sənədlə Abdullah ibn Əhməd ibn Məhəmməd ibn Hənbəldən, oda öz atasından, atası Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Əlidən (ə) İmam Əli (ə) də Peyğəmbərdən (s) nəql edir:

"Bir qövm məşvərət edərsə, aralarında Əhməd və ya Məhəmməd adlı bir nəfər olarsa, Allah onlara xeyir və bərəkət nəsib edər"[1].

2. İbn Nəccar Şafei özünəməxsus sənədlə Yusif ibn Abdullah Qazidən, oda Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Allah Adəm övladlarına buyurur: Ey Adəm övladı! Mənə qarşı insaflı olmadın. Mən sənə nemət bəxş etməklə sevgimi göstərirəm, sən isə günahlarınla özünü bəlaya salırsan. Xeyir və bərəkətim üzərinə axır. Sənin günahlarının şöləsi isə göylərə yüksəlir. Bir mələk daim sənin əməllərini mənə yetirir. Ey Adəm övladı! Əgər çirkin əməllərini digərindən

---

[1] "Tarixi-Bağdad", c. 19, səh. 152.

eşitsən, sənin haqqında olduğunu bilməsən tez əsəbləşib, narahat olarsan"[1].

3. Məhəmməd ibn Səlamət Quzai Şafei (h.q. 454) özünəməxsus sənədlə İmam Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Xalqla qarşılıqlı münasibətdə olan, lakin onlara zülm etməyən, onlarla daim söhbət edən, lakin yalan söyləməyən, vəd verən, vədinə arxa çevirməyən tam mərd, kamil ədalətli insandır. Onunla dost olmaq vacib, qeybətini etmək isə haramdır"[2].

4. Beyhəqi Şafei (h.q. 458) özünəməxsus sənədlə Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Ağılın özlü dindar olmaqdan sonra insanlara sevgi bəsləmək, pis və yaxşı insanların xeyrini istəməkdir"[3].

5. Əbu Nuəyn İsfahani Şafei (h.q. 430) özünəməxsus sənədlə Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Ən çətin əməllər üçdür: Özün haqqında haqqı qəbul etmək, hər halda Allahı yad etmək, din qardaşına maddi kömək göstərmək"[4].

6. Əbu Nuəym Şafei özünəməxsus sənədlə Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə

---

[1] “Yenə orada, səh. 136; “Ət-Tədvin fi əxbari-Qəzvin”, c. 3, səh. 4.
[2] “Müsnəd əş-şəhab”, c. 1, səh. 322; “əl-Kifayə fi elm ər-rivayə”, c. 1, səh. 78.
[3] “Şuəb əl-iman”, c. 6, səh. 256.
[4] “Hilyə əl-əvliya və təbəqat əl-əsfiya”, c. 1, səh. 85.

Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Elm xəzinədir. Onun açarı sualdır. Soruşun ki, Allah sizi öz rəhmətinin kölgəsinə alsın. Çünki sual zamanı üç qrup mükafat alır: Müəllim, şagird, dinləyən və sualı sevən"[1].

7. Davud ibn Süleyman İmam Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Şeytan həmişə beş namaza bağlı mömindən qorxur. Namazlarını qəzaya verdikdə şeytan curətlənir və onu böyük günahlara sürükləyir"[2].

8. Davud ibn Süleyman Əli ibn Musa ər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Allah dərgahında ən yaxşı əməl şəkkin yol tapa bilmədiyi iman, oğurluq və xəyanətin yol tapa bilmədiyi cihaddır"[3].

9. Davud ibn Süleyman özünəməxsus sənədlə Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Kimsə qəbristanlıqdan keçərkən "Tövhid" surəsini yeddi dəfə oxuyub savabını orada dəfn

---

[1] "Əbu Nuəym Şafei bu hədis haqqında yazır: "Bu hədis başqa sənədlə yazmadığımız üçün qəribə hədisdir". "Hilyə əl-əvliya və təbəqat əl-əsfiya", c. 3 səh. 428. Əlbəttə, "sualı sevən" ifadəsi bu kitabda yox, "ət-Tədvin fi əxbari-Qəzvin" (c. 3, səh. 428) kitabında mövcuddur.

[2] "Ə-Tədvin fi əxbari-Qəzvin", c. 3, səh. 428.

[3] Yenə orada. Bu hədis Peyğəmbərdən (s) digər vasitə ilə də nəql olunmuşdur (Əhməd ibn Hənbəl, "əl-Musnəd", c. 3, səh. 258.

olunanlara hədiyyə edərsə, ona ölülərin sayı qədər savab verilər"[1].

10. Əli ibn Həmzə Ələvi Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Qohum-əqrəbanızı sileyi-rəhim vacib olduğu qədərincə tanıyın. Çünki sileyi-rəhim əcəli təxirə salar. Var-dövlətin artmasına və Allahın razılığına səbəb olur"[2].

11. Əhməd ibn Amir Tayi Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Allah ümmətim üçün ondan bəhrələnsinlər deyə qırx hədis əzbərləyən şəxsi qiyamət günü fəqih və alim olaraq məhşur edəcəkdir"[3].

12. Şəblənci Şafei vasitəsiz olaraq Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Mənim hovuzuma etiqadı olmayan qiyamət günü ora daxil olmayacaq və Allah, şəfaətimə inanmayana şəfaətimi nəsib etməyəcək. Mənim şəfaətim yalnız ümmətimin böyük günah edənlərinə aiddir. Yaxşı iş görənlər isə sorğulanmayacaqlar"[4].

13. Şəblənci Şafei vasitəsiz olaraq Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

---

[1] Yenə orada,
[2] "Muvəzzhu əvham əl-cəm və ət-təfriq", c. 2, səh. 454.
[3] "Musnədu əl-İmam Zeyd", səh. 443; "əl-İləl və əl-mutanahiyə", c. 1, səh. 119.
[4] Nur əl-əbsar", səh. 227.

"Qiyamətədək elə bir mömin olmayacaq ki, onu incidən qonşusu olmasın"[1].

14. Şəblənci Şafei vasitəsiz olaraq Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Başın önündə ağ tük bərəkət, gicgahlarda səxavət, alına tökülən saçda şücaət, başın arxasında isə uğursuzluq əlamətidir"[2].

15. Şəblənci vasitəsiz olaraq Əli ibn Musər-Rzadan (ə), o da əcdadları vasitəsi ilə Həzrət Əlidən (ə) Peyğəmbərin (s) belə buyurduğunu nəql edir:

"Məni səmaya apararkən ərşdən asılı qohumlar gördüm. Digər qohumu onunla münasibəti pozduğu üçün Allaha şikayət edirdi. Ondan soruşdum: "Onunla sənin aranda ata tərəfdən nə qədər fasilə var?" Dedi: Qırxıncı babamız birdir"[3].

## *SON SÖZ*

Qeyd olunanlardan belə nəticə alırıq:

1. İmam Rzanın (ə) Nişabura girişi, "Silsilətuz-zəhəb" hədisini deməsi, Nişabur alimləri və əhli-sünnə alimlərinin onu misli görünməmiş şəkildə qarşılaması inkar edilməz tarixi faktdır.

2. "*Hisn*" və "*İman*" silsilətuz-zəhəb hədisləri əhli-sünnə qaynaqlarında müxtəlif vasitələrlə nəql olunmuşdur. Belə ki, qeyd olunan hədisin əhli-sünnə və imamiyyə qaynaqlarında İmamın (ə) öz dövründə hadisənin şahidi olan çoxsaylı rəvayətçilər vasitəsi ilə

---

[1] Yenə orada.
[2] Yenə orada.
[3] Yenə orada.

öz əksini tapmasını nəzərə alsaq, hər iki hədisi mütəvatir hesab edə bilərik.

3. Bu hədisin əhli-sünnə qaynaqlarında müxtəlif vasitələrlə nəql olunduğu onların böyük alimləri tərəfindən dəstəkləndiyi bir halda altı səhih kitabda qeyd olunmaması onun zəif olmasını göstərmir. Çünki əhli-sünnə təriqatçılarının da etiraf etdiklərinə görə bir çox səhih hədislər mövcüddur ki, həmin altı kitabda yer almamışdır. Bundan başqa "Silsilətuz-zəhəb" hədisi "*İman*" hədisi məzmunu ilə "Sünəni-İbn Macə"də verilmişdir.

Bütün bunlara nəzər saldıqda hər bir insaflı fərdi iki sual maraqlandırmaya bilmir:

### ***Bİrİncİ sual***

İmam Rzanın (ə) Nişabura girişi, "Silsilətuz-zəhəb" hədisini söyləməsi, hədisin on, iyirmi və ya otuz min nəfər tərəfindən yazılması, "*Hisn*" və "*İman*" hədislərinin doxsandan çox əhli-sünnə rəvayətçisi tərəfindən nəql olunması, hədisin onlarla mötəbər kitabda yer alması, əhli-sünnə böyüklərinin hədisin sənəd və mətnindən vəcdə gələrək söylədikləri maraqlı fikirlər səhih kitabların müəlliflərini ciddi sualla qarşı-qarşıya qoyur. Nə üçün və hansı səbəbə görə bu səhih hədislər hədis toplularına salınmamış, hətta onlara işarə belə vurulmamışdır?

Doğrusu, Nişabur alimləri ilə digər əhli-sünnə alimləri və səhih hədis toplularının müəllifləri arasında İmam Rza (ə) və onun hədisləri, xüsusilə "Silsilətuz-zəhəb" hədisi ilə bağlı bu yanaşma fərqinə səbəb nədir?

***İkİncİ sual***

Əhli-sünnə alimləri İmam Rzanın (ə) elmi şəxsiyyəti haqqında maraqlı sözlər söyləmiş, ona xüsusi önəm vermiş, "Etibarlı idi. 24 yaşı olmasına baxmayaraq, Peyğəmbər (s) məscidində fətva verirdi"[1]. "Rzadan (ə) nə haqda soruşuldusa bildi"[2], "Malik ibn Ənəs dönəmində gənc ikən fətva verirdi"[3], "Peyğəmbər (s) Əhli-beytindən (ə), elm və irfan mədənindən olan imamların böyüklərindən, ümmətin çıraqlarından biri idi" [4] ibarələri və onlarla digər ibarələrlə İmamın (ə) elmi və mənəvi məqamını açıqlamağa çalışmışlar. Lakin bu İmamın (ə) sonsuz elmindən necə faydalanmaq olar? Şübhəsiz, bunun yeganə yolu rəvayətçilərin ondan eşidərək nəql etdikləri rəvayətləri gələcək nəsillərə ötürməkdir. İmamın (ə) fikir və sözlərini öz dövründə ətrafında olan rəvayətçilər "Səhifətur-Rza" və ya "Müsnədur-Rza" adlı kitablarda toplamış və bununla başqalarının da o Həzrətin (ə) elmindən bəhrələnməyinə kömək etmək istəmişlər.

Bu kitabı və ya digər rəvayətləri İmam Rzadan (ə) ayrıca nəql edənlər Əba Səlt Hirəvi, Əli ibn Sədəqə, Davud ibn Süleyman Curcani, Əhməd ibn Amir Tayi, Həsən ibn Fəzl ibn Abbas, Məhəmməd ibn Ömər Vaqidi və onlarla digər rəvayətçilərdir. Hansı ki, adları əhli-sünnə qaynaqlarında dağınıq və etinasız yer almışdır. Çünki bir qurup ricalçı

---

[1] "Təzkir əl-xəvass min əl-ümməti bi zikri xəsais əl-əimmə", səh. 315.
[2] "Əl-Fusul əl-muhimmə fi mərifəti əhval əl-əimmə", səh. 241.
[3] "Siyəru əlam ən-nübəla", c. 9, səh. 388.
[4] “Camiu kəramat əl-övliya”, c. 2, səh. 311.

təssübkeşcəsinə ifrat mövqeydən çıxış edərək onların zəif rəvayətçi olduğunu bildirmişdir[1].

Burada belə bir sual yaranır. Əhli-sünnə alimlərinin bir tərəfdən İmam Rzanın (ə) yüksək şəxsiyyətini yaxşı qələmə vermək, digər tərəfdən isə İmamla (ə) yeganə əlaqə yoluna elm və maarifindən istifadənin qarşısına əsassız və ifrat iddialarla sədd çəkməyi necə izah etmək olar? Bu ikili yanaşmanın mənası nədir?

---

[1] "Kitab əl-məcruhin", c. 2, səh. 106.

## Mündəricat


GİRİŞ ........................................................................... 3
Bİr neçə məqam ................................................................ 4
Mübahİsə obyektİ ............................................................... 5
"Sİlsİlətuz-zəhəb" hədİsinİ yazanlar ....................................... 7
Bİrİncİ fəsİl ................................................................... 8
"Hİsn" hədİSİ .................................................................. 8
Hədisin mətni .................................................................. 8
Rəvayətçilər .................................................................... 8
Üçüncü əsr ...................................................................... 9
Beşinci əsr ...................................................................... 10
Altıncı əsr ...................................................................... 10
Yeddinci əsr .................................................................... 11
Səkkizinci əsr .................................................................. 11
Doqquzuncu əsr ............................................................... 12
Onuncu əsr ..................................................................... 12
On birinci əsr .................................................................. 12
On ikinci əsr ................................................................... 13
On üçüncü əsr ................................................................. 13
On dördüncü əsrdən sonra ................................................. 13
Hədİsİ çatdıran vasİtələr ................................................... 13
Hədisin davamı ................................................................ 15
Məhəmməd Xacə Buxari Hənəfi (h.q. 822) ........................... 16
Qazi Bəhcət Əfəndi Şafei (h.q. 1350) .................................. 17
Əhlİ-sünnə alİmlərİnİn "Hİsn" hədİsİ haqqında nəzərləri ......... 17
Muvafiqlər ..................................................................... 18
Əba Səlt Hirəvi (h.q. 236) ................................................. 18
Əhməd ibn Hənbəl (h.q. 241) ............................................. 18
Yəhya ibn Hüseyn Həsəni (h.q. 298) .................................... 18
Əbu Nuəym İsfahani Şafei (h.q. 430) ................................... 19
Əbəl-Qasim Əbdul-Kərim ibn Həvazin Quşeyri Şafei (h.q. 465) ..... 19
Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505) ...................... 19
Deyləmi Şafei (h.q. 509) .................................................. 20

Zəməxşəri Hənəfi (h.q. 538) ............................................20
İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620) ........................20
Sibt ibn Cəvzi Hənəfi (h.q. 654)........................................20
Zərəndi Hənəfi (h.q. 757)................................................20
Siyuti Şafei (h.q. 911).......................................................21
Xunci İsfahani Hənəfi (h.q. 927)......................................21
Əbdul-Vasei ibn Yəhya Vasei Yəmani Hənəfi...................21
"Sİlsİlətuz-zəhəb" hədİsİnİn bərəkətİ İlə şəfa ALmaq ...........21
İbn Xəllakan Şafeinin söylədikləri (h.q. 681)....................22
Xunci Hənəfinin söylədikləri (h.q. 927)............................23
Digər bir yerdə yazır: ......................................................23
Muxaliflər.........................................................................23
İkİncİ fəsİl ...............................................................................25
"İman" hədİsİ ......................................................................25
Rəvayətçilər ......................................................................25
Üçüncü əsr .......................................................................26
Dördüncü əsr ...................................................................27
Beşinci əsr.........................................................................27
Altıncı əsr .........................................................................27
Yeddinci əsr .....................................................................28
Səkkizinci əsr.....................................................................28
Doqquzuncu əsr ................................................................29
Onuncu əsr.......................................................................29
On birinci əsr.....................................................................29
On ikinci əsr .....................................................................29
On üçüncü əsrdən sonra ...................................................30
Hədisin vasitələri ..................................................................30
Əhlİ-sünnənİn "İman" hədİSİnə baxışı.................................34
Müvafiqlər ...........................................................................35
Məhəmməd ibn İdris Şafei (h.q. 204) ...............................35
Abdullah ibn Tahir (h.q. 230) ...........................................35
Əba Səlt Hirəvi (h.q. 236).................................................36
Əhməd ibn Hənbəl (h.q. 241) ..........................................36
İbn Macə Qəzvini (h.q. 275).............................................36
Əbu Hatəm Razi Şafei (h.q. 277)......................................37

Yəhya ibn Hüseyn Həsəni (h.q. 298) ................................37
Əbu Bəkr Məhəmməd ibn Hüseyn Acuri Şafei (h.q. 360) .37
Darqutni Şafei (h.q. 380)..................................................37
Mənsur ibn Hüseyn Abi (h.q. 421) ...................................38
Əbu Nuəym İsfahani Şafei (h.q. 430) ...............................38
Beyhəqi Şafei (h.q. 458)...................................................38
Şəcəri Corcani Hənəfi (h.q. 499) ......................................38
Əbu Hamid Məhəmməd Qəzzali Şafei (h.q. 505) ............38
Zəməxşəri Hənəfi (h.q. 538) .............................................39
İbn Qudamə Məqdəsi Hənbəli (h.q. 620) .........................39
Sibt ibn Cozi Hənəfi (h.q. 654) ..........................................39
Cəmaləd-Din Məzzi Şafei (h.q. 742).................................39
İbn Həcər Əsqəlani Şafei (h.q. 852) .................................39
Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei (h.q. 833) .......40
Əbdur-Rəhman Səfuri Şafei (h.q. 894).............................40
Siyuti Şafei (h.q. 911) .......................................................40
Əbul-Həsən Əli ibn Məhəmməd Kinani Şafei (h. q. 963)..41
Əbul-Həsən Sindi Hənəfi (h.q. 1138) ...............................41
İcluni Şafei (h.q. 1162) .....................................................42
Qunduzi Hənəfi (h.q. 1294) .............................................42
Məhəmməd Fuad Əbd əl-Baqi Hənəfi .............................42
Doktor Faruq Himadih ......................................................43
Müxaliflər............................................................................43
"Hİsn" və "İman" hədİslərİ eynİdİrmİ?................................43
İmamın (ə) Nİşabura gİrİşİ, əhalİ və əhlİ-sünnə alİmlərİnİn mövqeyİ ...............................................................................44
Vaqidinin verdiyi məlumat ..............................................44
İbn Cozi Hənbəlinin verdiyi məlumat ...............................45
Hakim Nişaburi Şafeinin verdiyi məlumat ........................45
Tarİxİ məlumatlardan əldə olunan məqamlar......................48
Nişabur alİmlərİnİn məqamı ................................................49
1. Adəm ibn Əbu Əyas Əsqəlani (h.q. 220).......................49
2. Əbu Zəkəriyya Yəhya ibn Yəhya Təmimi Minqəri Nişaburi (h.q. 226) ...........................................................49

3. Əbu Əbdullah Əhməd ibn Hərb ibn Firuz Nişaburi (h.q. 234)....50
4. Əbu Yəqub İshaq ibn Rahveyh Mərvəzi (h.q. 238) ....50
5. Əbul-Həsən Məhəmməd ibn Əsləm Kindi Tusi (h.q 242)51
6. Əbu Əbdullah Məhəmməd ibn Rafe Quşeyri Hənbəli (h.q. 245) ....51
7. Nərs ibn Əli Cəhzəmi, yaxud Cuhni (h.q. 250) ....52
8. Əbu Zurə Ubeydullah ibn Əbdul-Kərim Razi Qureyşi Məxzumi Hənbəli (h.q. 261) ....52
9. Məhəmməd ibn İshaq ibn Xuzəymə Şafei (h.q. 311)....53
Üçüncü fəsİl ....55
Əba Səlt Hirəvİ əhlİ-sünnənİn gözü İlə....55
Əba Səltİn rəvayətçİ kİmilİyİ ....55
Birinci baxış:....56
Yəhya bin Məin (h.q. 233)....57
İcli (h.q. 261)....59
Əba Davud Səcistani (h.q. 275)....59
Məhəmməd ibn İsmayıl Buxari (h.q. 256) ....59
İbn Şahin (h.q. 385)....60
Hakim Nişaburi Şafei (h.q. 405) ....60
Əbu Yəla Qəzvini (h.q. 456) ....60
Hakim Həsəkani Hənəfi (təqribən h.q. 490) ....61
Məzzi Şafei (h.q. 742) ....61
Məhəmməd ibn Məhəmməd Cəzəri Şafei (h.q. 833) ....61
İbn Həcər Əsqəlani (h.q. 852)....61
İbn Təqri Bərdi Hənəfi (h.q. 874) ....62
Əbul-Həsən Kinani Şafei (h.q. 963)....62
Əbul-Həsən Sindi Hənəfi (h.q. 1138) ....63
İcluni Şafei (h.q. 1162) ....63
İkinci baxış....63
Zəkəriyya ibn Yəhya Saci Bəsri Şafei (h.q. 307)....64
Nəqqaş Hənbəli (h.q. 414)....64
Əbu Nuəym İsfahani (h.q. 430)....64
İkinci baxış haqqında bir neçə söz ....64
Üçüncü baxış....65

İbrahim ibn Yaqub Cuzcani (h.q. 259)....65
Əbu Hatəm Razi Şafei (h.q. 277)....65
Əbu Zurə Dəməşqi Hənbəli (h.q. 281)....66
Nəsai Şafei (h.q. 303)....66
Uqəyli Məkki (h.q. 322)....66
İbn Hibban Busti Şafei (h.q. 354)....66
İbn Ədiyy Curcani Şafei (h.q. 345)....67
Darqutni Bağdadi Şafei (h.q. 385)....67
Məhəmməd ibn Tahir Məqdəsi Zahiri (h.q. 507)....68
Əbu Səid Əbdul-Kərim Səmani Şafei (h.q. 562)....68
Əbul-Fərəc ibn Cəvzi Hənbəli (h.q. 597)....68
Zəhəbi Şafei (h.q. 478)....68
İbn Kəsir Dəməşqi Şafei (h.q. 774)....69
Buseyri Şafei (h.q. 840)....70
Üçüncü baxış haqqında bir neçə söz....70
Cuzcani Əba Səltə qarşı ittihamların mənşəyi....72
Əhli-sünnənin böyük alimləri Cuzcaninin Əhli-beyt düşməni olması haqqında etirafları....73
Yekun....75
Əba Səltin məzhəbi....76
Yekun....80
Dördüncü fəsİl....81
Dİgər hədİslər....81
Digər silsilətuz-zəhəb hədisləri....81
Son söz....85
Bİrİncİ sual....86
İkİncİ sual....87